HƏYAT BİLGİSİ 5

DƏRSLİK

Azərbaycan Respublikasının Dövlət Himni

Musiqisi Üzeyir Hacıbəylinin,
sözləri Əhməd Cavadındır.

Azərbaycan! Azərbaycan!
Ey qəhrəman övladın şanlı Vətəni!
Səndən ötrü can verməyə cümlə hazırız!
Səndən ötrü qan tökməyə cümlə qadiriz!
Üçrəngli bayrağınla məsud yaşa!
Minlərlə can qurban oldu!
Sinən hərbə meydan oldu!
Hüququndan keçən əsgər,
Hərə bir qəhrəman oldu!

Sən olasan gülüstan,
Sənə hər an can qurban!
Sənə min bir məhəbbət
Sinəmdə tutmuş məkan!

Namusunu hifz etməyə,
Bayrağını yüksəltməyə
Cümlə gənclər müştaqdır!
Şanlı Vətən! Şanlı Vətən!
Azərbaycan! Azərbaycan!

HEYDƏR ƏLİYEV

AZƏRBAYCAN XALQININ ÜMUMMİLLİ LİDERİ

NÜŞABƏ MƏMMƏDOVA
KÖNÜL MAHMUDOVA
SEVİL BƏHRƏMOVA

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün

HƏYAT BİLGİSİ

fənni üzrə

DƏRSLİK

Bu nəşrlə bağlı irad və təkliflərinizi
info@eastwest.az və derslik@edu.gov.az
elektron ünvanlarına göndərməyiniz xahiş olunur.
Əməkdaşlığınız üçün əvvəlcədən təşəkkür edirik!

ŞƏRQ-QƏRB

MÜNDƏRİCAT

Cəmiyyət – bu bizik

- **Mövzu 1.** Hər şey ünsiyyətdən başlayır 8
- **Mövzu 2.** Ailə kiçik cəmiyyətdir 12
- **Mövzu 3.** Mən də bir qrupdayam 15
- **Mövzu 4.** Xalqlar 18
- **Mövzu 5.** Dövlət və dövlətçilik 20
- **Mövzu 6.** Dövlətim mənə xidmət edir 23
- **Mövzu 7.** Hüquqlarımız qorunur 26
- **Mövzu 8.** Bizim tələbatlarımız 30

Ətraf mühit və sağlamlıq

- **Mövzu 9.** Sağlam həyat tərzi 36
- **Mövzu 10.** Təhlükəsiz kompüter 39
- **Mövzu 11.** Sağlamlığımızı qoruyaq 41
- **Mövzu 12.** Yol nişanları nə üçündür? 44
- **Mövzu 13.** Yol hərəkəti qaydalarına əməl edək! 48

Təbiəti gəzək və tanıyaq

- **Mövzu 14.** Təbiətdəki cisim və maddələr 52
- **Mövzu 15.** Mühit amilləri və təbiət hadisələri. 55
- **Mövzu 16.** Təbiətin qəzəbi. 59
- **Mövzu 17.** Günəş sistemində baş verən hadisələr 62
- **Mövzu 18.** Ekoloji mühitin canlılara təsiri. 65
- **Mövzu 19.** İnsan və təbiət. 67
- **Mövzu 20.** Təbiətə zərər vurmayaq!. 70
- **Mövzu 21.** Təbiətə borcumuz 73

Din və mənəviyyat

- **Mövzu 22.** İnsanın gözəlliyi onun əxlaq və davranışındadır . . 76
- **Mövzu 23.** Dini dözümlülük 79
- **Mövzu 24.** Səmavi və qeyri-səmavi dinlər. 83
- **Mövzu 25.** İnanc sistemində oxşarlıq və fərqlər 85

İstifadə edilmiş ədəbiyyat 87

Şərti işarələr

Motivasiya

Tapşırıqlar

Diqqət

Maraqlı faktlar

CƏMİYYƏT – BU BİZİK

1 Hər şey ünsiyyətdən başlayır

Artıq siz ibtidai təhsil səviyyəsini başa vurmuşsunuz. Təhsilinizi 5-ci sinifdə davam etdirirsiniz. Tədris olunacaq fənlərin, sizə dərs deyəcək müəllimlərin sayı artıb. Vaxtınızın çox hissəsini müəllimləriniz və sinif yoldaşlarınızla birgə doğma məktəbdə keçirəcək, onlarla ünsiyyət quracaqsınız. Sizi düşündürən, narahat edən suallara məhz burada cavab tapacaqsınız. Görəsən, nə üçün ünsiyyət insanın mənəvi tələbatı hesab olunur?

Şəkli sinif yoldaşlarınızla müzakirə edin.

Ünsiyyət insanlar arasında qarşılıqlı münasibətdir. Bir-birini anlamaq insanın mənəvi tələbatıdır.

İnsanların bir-biri ilə ünsiyyət saxlamadan cəmiyyətdə yaşaması mümkün deyil.

Ünsiyyət müxtəlif vasitələrlə – nitq, mimika, əl və bədən hərəkətləri ilə həyata keçirilə bilər. Lakin unutmayaq ki, bu heç də asan proses deyil. Cəmiyyətdə elə insanlar var ki, ətrafdakılarla ünsiyyət qurmaqda çətinlik çəkirlər. Uğurlu ünsiyyət yaratmağa bir sıra amillər kömək edir: salamlaşmaq, gülərüz olmaq, hal-əhval tutmaq, qonaq getmək, qonaq qəbul etmək, xoşrəftar, dürüst, səxavətli olmaq və s. Bütün bu sadalananlar *ünsiyyət mədəniyyətinin* formalaşması üçün çox əhəmiyyətlidir.

İnsan ünsiyyətinin əsasını nitq təşkil edir. Eşitmə və nitq qüsurlu şəxslər isə ünsiyyət qurmaq üçün işarə dilindən istifadə edirlər.

5-ci sinifdən etibarən siz böyük sürətlə dəyişiklik dövrü keçirməyə başlayırsınız. Bu dövrdə hər birinizin düşüncə tərzi fərqli ola bilər. Bu zaman bir-birinizin sevmədiyi fəaliyyət növü ilə, oyun və s. məşğul olmağınız sizin qarşılıqlı ünsiyyət qurmağınıza mane olmamalıdır.

Ətrafınızdakı insanlarla münasibətlərinizi pozmadan ünsiyyət qurmağa çalışın. Bəzən sizə elə gələ bilər ki, valideynləriniz, ətrafınızda olan insanlar, sinif yoldaşlarınız sizə lazımi qədər diqqət və qayğı göstərmir, hisslərinizi anlamır və sizə dəstək olmurlar. Bu cür düşünməyiniz onlarla ünsiyyət qurmağınıza mane ola bilər. Fikirlərinizi bölüşə bilməmək özünüzü tənha hiss etməyinizə səbəb olar. Lakin hər kəsdən uzaqlaşmaq çıxış yolu deyil. Əyləncələrə və ünsiyyətə vaxt ayırın. Yüksək əhvali-ruhiyyə insanlarla yaxşı münasibət qurmağınıza kömək edər. Dostlarınız, sinif yoldaşlarınız haqqında yaxşı düşünməyə çalışın. Yoldaşlarınızla səmimi münasibət qurun.

Maraqlı ünsiyyət, qarşılıqlı anlaşma və hörmət münasibətlərin formalaşmasına təsir edir. Dərslərinizi oxuyun, insanlarla yaxşı münasibətlər qurun. Siz yüksək təhsil və mədəniyyət nümayiş etdirməklə də ətrafınızda hər kəsin sevimlisinə çevrilə bilərsiniz.

Uğurlu nəticələr bilik və bacarıqlardan asılıdır. Amma bununla yanaşı, düzgün qurulmuş ünsiyyət və münasibət də uğur qazanmağınıza kömək edər. Daha çox mütaliə etmək, ünsiyyət zamanı oxuduqlarınızdan yararlanmaq yoldaşlarınızla münasibətləri düzgün qurmağınıza kömək etmiş olar.

Ünsiyyət qurmaqda çətinlik çəkən yoldaşlarınıza necə kömək edə bilərsiniz?

Valideynlərinizdən, müəllim və yoldaşlarınızdan gözlədiyiniz diqqət və qayğını siz də onlardan əsirgəməyin. Kiçik çatışmazlıqları öz daxilinizdə böyük problemə çevirib özünüzə qapanmayın, xoş münasibəti gözəl sözlərlə ifadə edin. Valideynlərinizə, müəllimlərinizə, yaxud da məktəb psixoloqunuza müraciət edərək narahatlığınızın səbəbini söyləmək olar. Bununla da öz daxili gərginliyinizi azalda, onlardan məsləhətlər almaqla yenidən həyat sevincini hiss edə bilərsiniz.

Unutmayın ki, onlar sizə hər zaman dəstək olmağa, düzgün istiqamət verməyə hazırdırlar.

Bəzən fərqli düşüncə və fikirləri olan insanlar arasında anlaşılmazlıq yaranır. Bu cür halların olmaması üçün hansı təklifləri verə bilərsiniz?

Qarşılıqlı münasibətlərin yaxşılaşdırılması üçün:

- Bir-birinizlə necə ünsiyyət qurduğunuzu müzakirə edin.
- Səhvlərinizi etiraf edin.
- Etdiyiniz hər hansı bir səhvə və ya kobudluğa görə üzr istəməyi bacarın.
- Ünsiyyət zamanı istifadə etdiyiniz yanlış sözləri yaxşıları ilə əvəz edin.
- Bir-birinizə inamla yanaşın.
- Etiraz etdiyiniz məsələyə nə üçün "yox" dediyinizi izah edin.
- Bir-birinizi dinləməyi bacarın.
- Sizinlə danışan insana həmişə diqqətlə qulaq asın və onunla göz təması qurun.

Yuxarıda göstərilən siyahıya daha nələri əlavə edərdiniz?

Müasir dövrdə canlı ünsiyyət öz yerini daha çox virtual ünsiyyətə verib və o, həyatımızın bir parçasına çevrilib. Son vaxtlar belə fikirlər səslənir ki, tezliklə virtual ünsiyyət canlı ünsiyyəti əvəz edəcəkdir.

Bilirsiniz ki, kompüter insanlara təhsil almağa, səmərəli işləməyə imkan yaradır. İnsanlar özlərinə lazım olan məlumatı internet

vasitəsilə əldə edir, öyrənir, hətta dost da seçirlər. Lakin kompüterdən çox istifadə asılılıq yaradır. Bu isə insanların canlı ünsiyyətini azaldır.

Unutmayın ki, canlı ünsiyyət və münasibətlərdən alınan təəssüratı heç nə əvəz edə bilməz. Buna baxmayaraq, virtual ünsiyyətin müsbət tərəfləri də vardır. Siz internet vasitəsilə məsafədən tədris imkanları əldə edə bilərsiniz. Müxtəlif xalqların, ölkələrin nümayəndələri ilə dostlaşmaq, onlarla birgə şagird layihələrinə qoşulmaq mümkündür. Müasir dövrün texnoloji yenilikləri bizim işimizi asanlaşdırır, uzağı əlçatan edir.

Müasir dövrdə informasiya texnologiyalarının köməyi ilə şagirdlər və tələbələr məsafədən təhsilə cəlb olunurlar. Bunun nə kimi üstünlükləri olduğunu yoldaşlarınızla müzakirə edin.

1. Şəkillərə əsasən ünsiyyət vasitələrini müəyyən edin.

2. Nümunəvi ünsiyyət qaydaları haqqında esse yazın.

3. Bəzi insanların düzgün ünsiyyət qura bilməməsinin səbəblərini araşdırın. Belə insanlara hansı tövsiyələri verərdiniz?

2 Ailə kiçik cəmiyyətdir

İnsan daim fəaliyyətdədir. O yeyir, içir, danışır, oxuyur, düşünür, kiminləsə dostluq edir. Bəzən kiminsə köməyinə ehtiyac duyur, yaxud kiməsə yardım edir. İnsan bir ailəyə, xalqa, dövlətə mənsubdur. O, valideynləri, qohum-əqrəbaları, qonşuları, dostları, həmvətənləri tərəfindən əhatə olunur.

Belə insan birlikləri necə adlanır?

Ailə – xüsusi, mürəkkəb insan münasibətləri aləmidir.

Heydər Əliyev
Ümummilli lider

Bütün insanlar birlikdə cəmiyyət təşkil edirlər. Bəzən bir-biri ilə ünsiyyətdə olan insanlardan ibarət kiçik qrupu da cəmiyyət adlandırırlar.

İnsanı digər canlılardan fərqləndirən onun şüurlu varlıq olmasıdır. İnsanın şüuru məhz digər insanların əhatəsində yaşadığı zaman tam formalaşır. Lakin cəmiyyətin yaranması üçün yalnız insanların bir yerə toplanması əsas şərt deyil. Minlərlə insan bir yerə toplaşa bilər, lakin aralarında ünsiyyət yoxdursa, onları ümumi bir məqsəd birləşdirmirsə, bu toplumu cəmiyyət adlandırmaq olmaz. Cəmiyyətdəki insanlar öz tələbatlarını ödəmək üçün bir-birinə bağlı, bir-biri ilə əlaqəlidirlər.

Hər bir insanın cəmiyyət qarşısında öz vəzifələri vardır. Bu vəzifələrin yerinə yetirilməsində hər kəs məsuliyyət daşıyır.

Ailə dedikdə nə başa düşürsünüz? Sual işarələrinin yerinə daha nələri əlavə etmək olar?

birlikdə yaşanan həyat

sevinc

?

müxtəlif talelər

qayğı

?

Cəmiyyətin təməli olan ailədə yaşanan qarşılıqlı sevgi onun davamlı olmasını təmin edir. Doğulduğumuz gündən bizi tək qoymayan valideynlərimiz, hər zaman bizə sevgi ilə yanaşan nənə-babalarımız, sevincimizi və kədərimizi bir yerdə bölüşdüyümüz qohumlarımız ailəmizin ayrılmaz üzvləridir. Amma hər ailə böyük olmur. Əsas şərt onun kiçik və ya böyüklüyündə deyil, üzvləri arasındakı münasibətlərin düzgün qurulmasındadır.

Ailə istənilən sivilizasiyanın və cəmiyyətin əsas özəyidir.

Rabindranat Taqor

Bir anlığa təsəvvür edin ki, ailədə hər kəs yalnız öz istəklərini yerinə yetirir. Digər ailə üzvlərinin arzuları isə nəzərə alınmır. Bu zaman baş verə biləcəkləri sinif yoldaşlarınızla müzakirə edin.

Sevgi və hörmət olmayan ailələrdə tez-tez münaqişələr, bir-birinə qarşı kobudluq, hətta zorakılıq halları baş verir. Təbii ki, belə ailədə yaşamaq çətin olur. Cəmiyyətdə də belədir. İnsanların mehriban, dostluq şəraitində, firavan yaşamasını təmin edən qayda-qanunlara ehtiyac duyulur. Yalnız cəmiyyəti təşkil edən insanların mənəvi cəhətdən zənginliyi firavan həyata şərait yarada bilər.

1. *Ailə üzvlərinizlə birgə keçirə biləcəyiniz bir günlük asudə vaxtınızı planlaşdırın. Hər kəsin üzərinə düşən vəzifələri müəyyənləşdirin.*

2. *Sizin üçün ailə nə deməkdir? Bir neçə nəfər arasında sorğu təşkil edin, "+" işarəsi qoymaqla nəticələri qeyd edin.*

Ailə mənim üçün əsasdır, dəyərlidir.	
Ailə – qohumluq əlaqələri olan insan qruplaşmasıdır.	
Ailə – həyat və xoşbəxtlik deməkdir.	
Ailə – bir-birinə məsuliyyətli yanaşmaq deməkdir.	
Ailə – ən əziz, dəyərli və güvənilən insanlardan ibarət qrupdur.	
Ailə – sevgi dolu ev deməkdir.	
Ailə – kiçik dövlətdir.	
Ailə – birlikdə yaşamaqdır.	

3. *Sizin sinfiniz də kiçik bir cəmiyyətdir. Bu cəmiyyətdə hansı qayda-qanuna əməl etməli olduğunuzu müəyyənləşdirin.*
4. *Verilmiş ifadələrdən istifadə edərək insanlar arasındakı qarşılıqlı münasibətə aid mətn hazırlayın:*
   Sevgi, diqqət, qarşılıqlı hörmət, ev, bir-birini anlamaq, çətin anlar, dost, yaşlılara qayğı, rahatlıq, kədər, ailə üzvləri, mehribanlıq, kömək etmək.

Mən də bir qrupdayam 3

Yəqin ki, tətil müddətində sinif yoldaşlarınız, müəllimləriniz və məktəbdəki dostlarınız üçün darıxmışdınız. Nəhayət, dərs ili başladı və bununla sizin vəzifələriniz də artdı. Artıq siz, eləcə də sinif yoldaşlarınız daha çox oxuyub-öyrənməli, qruplarda birgə işləməli, məktəb tədbirlərində məsuliyyətlə iştirak etməlisiniz. Bu günə qədər hansı tədbirlərdə iştirak etmişsiniz?

Cəmiyyətin xoşbəxtliyi fərdin xoşbəxtliyindən daha əhəmiyyətlidir.

Platon

Hesab edin ki, sinif yoldaşlarınızla bərabər "Təbiəti qoruyaq" adlı divar qəzeti hazırlamalısınız. Bunun üçün nə etməlisiniz? Qrup üzvlərinin görəcəyi işləri planlaşdırın.

Siz sinif yoldaşlarınızdan ibarət bir qrup yaratmışsınız. Unutmayın ki, görüləcək işləri şagirdlər arasında ədalətlə bölmək lazımdır. Qrup daxilində olan hər bir şagird də öz məsuliyyətini bilməli və işini düzgün yerinə yetirməlidir. Belə qruplar *kiçik sosial qruplar* adlanır. Bu tip kiçik sosial qrupları siz nəinki divar qəzeti hazırlayarkən, həmçinin idman dərslərində, gəzintilərə getdikdə və həyətdə yoldaşlarınızla müxtəlif oyunlar oynayan zaman yarada bilərsiniz.

Futbol komandası yaradarkən yoldaşlarınızı hansı bacarıqlarına görə seçərdiniz?

Uşaq futbol klubları

Cəmiyyətin xoşbəxtliyi üçün çalışanın özü də xoşbəxt olar.

Samuel Smayls

Sosial birliklər arasında çoxlu fərq var. Əsas fərq onların tələbat və mənafelərindədir. Sosial birliklərdə insanların sayı da bir-birindən fərqlənir. Sosial birliklər arasında *ilkin etnik qrup nəsildir*. O, ailələrdən əmələ gəlir və qan qohumluğuna əsaslanır. İki və daha çox nəsil *tayfa* əmələ gətirir. Bunlardan daha böyük sosial birlik isə *xalqdır*. Xalq dedikdə qan qohumluğu başa düşülmür. Xalqın əsas əlamətləri *eyni ərazidə yaşamaq*, ümumi *dil və mədəniyyətə* malik olmaqdır.

Qazaxlar

İqtisadi əlaqələr möhkəmlənib dərinləşdikcə *millətin* formalaşması prosesi baş verir. *Millət* ən böyük sosial birlikdir. Bir çox millətlər öz müstəqil dövlətlərini qurublar. Hər hansı problemin həlli üçün vətəndaşlar müəyyən *ictimai birliklər* yaradırlar. Bu birliklər dövlətin qanunları əsasında fəaliyyət göstərir.

1. Şəkillərə baxıb insanların hansı qruplarda birləşdiyini aydınlaşdırın.

2. Teatr dərnəyi yaratmaq istəyirik. Lalə qrupun rəhbəri seçilir. Sizi də qrupumuza üzv qəbul edirik. Siz hansı işləri görə bilərsiniz? Fikirlərinizi yazın.
3. Cədvəli tamamlayın. Hansı qrupların üzvüsünüz? Bu qruplardakı rolunuz nədən ibarətdir?

Qrup	Qrupdakı rolunuz

4. Məktəb tədbirlərində iştirak nə üçün əhəmiyyətli hesab olunur?

4 Xalqlar

*Yer kürəsində yaşayan bütün insanlar ayrı-ayrı qruplara ayrılırlar ki, bu qruplar da, bildiyiniz kimi, **xalq** adlanır. Hər bir xalqın özünəməxsus mədəniyyəti, dili, dini, adət-ənənələri, yaşayış tərzi, folkloru, milli geyimi və mətbəxi var. Siz xalqımızın hansı özünəməxsus xüsusiyyətlərini sadalaya bilərsiniz?*

Sayı 100 milyondan çox olan ən böyük xalqlara çinlilər, ərəblər, indoneziyalılar, hindlilər, amerikalılar (ABŞ-da yaşayan), həmçinin benqallar, ruslar, meksikalılar, braziliyalılar, yaponlar və b. aiddir.

Şəkildəki xalqların geyimi, yaşayış tərzi, adət-ənənələri və incəsənəti haqqında yoldaşlarınızla müzakirə aparın.

Hindlilər

Çinlilər

Dünyada say etibarilə bir çox böyük və qədim xalqlar var. Bunlara çinliləri, hindliləri, türkləri, ərəbləri və başqa xalqları misal göstərə bilərik. Bu xalqların özünəməxsus tarixi, mədəniyyəti və adət-ənənələri vardır.

Çinlilər və hindlilər Cənub-Şərqi Asiyada, türklər isə Mərkəzi Asiya və Altay dağları ətrafında yaşamışlar. Sonralar türklərin yaşayış arealı daha da genişlənmişdir. Kağızı, kompası, barıtı çinlilər, şahmatı və "0" rəqəmini isə hindlilər yaradıblar. Qədimdə çinlilər Konfutsi təliminə, hindlilər buddizmə, türklər isə səma cisimlərinə, şamanlığa inanmışlar.

Azərbaycanın əlverişli coğrafi şəraitdə yerləşdiyini bilirsiniz. Vətənimizin zəngin təbiəti hələ qədim dövrlərdən buranın yaşayış məskəninə çevrilməsinə səbəb olmuşdur. Tarixi mənbələrə görə, Azərbaycanın etnik tərkibi daim genişlənmişdir. Bu isə ölkəmizin hələ çox qədimdən tolerantlığı* ilə seçildiyini göstərir. Respublikamızın ərazisində Azərbaycan türkləri ilə bərabər, başqa azsaylı xalqlar da yaşayırlar. Bu xalqların sayı çoxdur. Bunlara dağ yəhudilərini, tatları, talışları, kürdləri, ingiloyları, avarları, ləzgiləri, xınalıqlıları və başqalarını aid etmək olar. Bu xalqların hər biri Azərbaycan ərazisində birgə yaşamalarına baxmayaraq, özünəməxsus fərqli mədəniyyət elementlərini qoruyub saxlamışlar. Onların mədəniyyəti məişət həyatında, sənətkarlıqda, mətbəxdə, müxtəlif mərasimlərdə öz əksini tapır.

Azərbaycanın Quba rayonu ərazisində yerləşən Xınalıq kəndi ən yüksək yaşayış məskənlərindən biridir. Xınalıqlılar Azərbaycanın ən qədim sakinlərindən sayılırlar. Bu etnosun öz dili və yaşayış məskəni vardır. Xınalıqlılar dünyada oxşarı olmayan xınalıq dilində danışırlar.

1. *Azərbaycanda yaşayan xalqlar və etnik qruplar haqqında məlumat toplayın və cədvəli çəkərək tamamlayın.*

№	Xalq və ya etnik qrup	Yaşadığı ərazi	Dili	Dini	Milli geyimi
1.					
2.					

2. *Regionunuzda yaşayan azsaylı xalqların mətbəxlərinin fərqli xüsusiyyətlərini yazın.*
3. *Slavyanlar və meksikalılar haqqında məlumat toplayın.*

Slavyanlar

Meksikalılar

* *tolerantlıq* – fərqli dünyagörüşü və həyat tərzinə qarşı dözümlülük

5 Dövlət və dövlətçilik

Cəmiyyətdəki bütün birliklər bir qurumda birləşir və vahid dövlət hakimiyyətinə tabe olur. Yer kürəsində dövlətlər çoxdur. Dövlət insanların birgəyaşayış forması olub, onların qanunlara və hakimiyyətə tabeliyini təmin edir. Hər bir dövlət cəmiyyəti dövlət orqanları vasitəsilə idarə edir, qoruyur, onun ictimai və siyasi quruluşunu tənzimləyir.

Dövlət cəmiyyətin həyatını nizamlamaq üçün qanunlar qəbul edir.

Hansı dövlət orqanlarını tanıyırsınız və onların funksiyaları nədən ibarətdir?

Dövlətin yaranması haqqında müxtəlif fikirlər vardır. Bəzi alimlər hesab edirlər ki, dövlət *ailənin böyüməsi* nəticəsində yaranmışdır. Valideyn ailədə hər kəsə eyni cür qayğı göstərdiyi kimi, dövlət də hər kəsə eyni cür münasibət bəsləməlidir.

Sizcə, dövlətlər necə yaranmışdır? Fikirlərinizi əsaslandırın.

Azərbaycan Respublikası Milli Məclisinin binası

26 İyun – Azərbaycan Respublikasının Silahlı Qüvvələri Günü

Dövlətin əsas əlamətləri:

- *Öz ərazisinin və əhalisinin olması;*
- *Xüsusi qanunlarının mövcudluğu;*
- *Siyasi hakimiyyətin mövcudluğu;*
- *Ordusunun olması;*
- *Rəmzlərinin (himn, gerb, bayraq) olması;*
- *Milli pul vahidinin olması və s.*

Dövlət xalqın mənafeyinə xidmət edir. Dövlətin ali məqsədi insan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsidir.

Dövlətin əlamətləri ilə yanaşı, vəzifələri də vardır. Bütün dövlətlərdə olduğu kimi, Azərbaycanda da dövlət cəmiyyətdə əsas idarəedici və təşkilatçı qüvvədir. Ölkəmizdə dövlət bir sıra mühüm vəzifələr yerinə yetirir:

- *Uşaqların pulsuz icbari ümumi orta təhsil almaq hüququnu təmin edir;*
- *Ətraf mühitin qorunması haqqında qanunların həyata keçirilməsinə şərait yaradır;*
- *Başqa dövlətlərlə siyasi, iqtisadi və mədəni əlaqələr qurur və əməkdaşlıq edir;*
- *İnsan hüquqlarını və azadlıqlarını müdafiə edir;*

- *Əhalinin yaşayış səviyyəsini yaxşılaşdırmaq üçün tədbirlər həyata keçirir;*
- *Dövlət sərhədlərini qoruyur və s.*

Dövlətin vəzifələri bir-biri ilə sıx bağlıdır. Ona görə də biri digərinin yerinə yetirilməsinə öz təsirini göstərir.

1. Dövlətin aşağıdakı vəzifələrini izah edin:

- *Ətraf mühitin qorunması haqqında qanunların həyata keçirilməsinə şərait yaradır;*
- *İnsan hüquqlarını və azadlıqlarını müdafiə edir.*

2. Azərbaycan Respublikasının Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin yaradılmasında məqsəd nədir? Fikirlərinizi əsaslandırın.

3. Cədvəli dəftərinizdə çəkin və doldurun.

Dövlətin vəzifələri	Vəzifələri həyata keçirən dövlət orqanı	Cəmiyyət üçün əhəmiyyəti
Uşaqlara təhsil almaq imkanının yaradılması		
Dövlətimizin başqa dövlətlərlə əməkdaşlığı		
Əhalinin həyat səviyyəsinin yaxşılaşdırılması		
Dövlət sərhədlərinin qorunması		

Dövlətim mənə xidmət edir 6

Biz hamımız Azərbaycan dövlətinin vətəndaşlarıyıq. Müstəqillik əldə etmiş Azərbaycan bu gün dünyanın sayılıb-seçilən dövlətlərindən biridir. Ümummilli lider Heydər Əliyev müstəqil Azərbaycanı idarə edərkən doğma vətəni daim güclü, qüdrətli etmək, onu dünyanın inkişaf etmiş dövlətlərinin səviyyəsinə qaldırmaq amalı ilə yaşamışdır. Hazırda bu uğurlu siyasəti Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev davam etdirir.

Kim öz Vətəninin müdafiəsindən boyun qaçırırsa, onun bu torpaqda yaşamağa haqqı yoxdur.

Heydər Əliyev
Ümummilli lider

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev

Azərbaycan Respublikasının *Konstitusiyası Ali Qanun* hesab olunur. Qanunlar cəmiyyətin sosial və ictimai həyatını tənzimləyir, vətəndaş–dövlət münasibətlərini nizama salır.

Qanunlara hörmət etməliyik, çünki qanunlar bizim hüquqlarımızı qoruyur.

Azərbaycan xalqının müasir tarixində baş verən Qarabağ müharibəsi nəticəsində soydaşlarımız doğma yurd-yuvalarından və əzəli torpaqlarından məhrum olmuş, fiziki və mənəvi zorakılığa məruz qalmışlar. Dövlətimiz düşmən tapdağı altında qalan torpaqlarımızı azad etmək üçün müxtəlif tədbirlər həyata keçirir. Həmçinin məcburi köçkünlərə qayğı göstərilərək onlar mənzillərlə təmin olunur, uşaqları isə dövlət ali və orta ixtisas təhsili müəssisələrində pulsuz təhsil alırlar.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva məcburi köçkünlər üçün salınmış yaşayış kompleksində kompleksin maketinə baxarkən

Respublikamızda *qanunların aliliyi* prinsipinə ciddi əməl olunur, özbaşınalığa yol verilmir. Hüquqi dövlətdə vətəndaş dövlət üçün deyil, dövlət vətəndaş üçün fəaliyyət göstərir. Dövlət cəmiyyətin üzvlərinə xidmət edir, hər kəsin hüquq və azadlıqlarının müdafiəsinə təminat verir. "Əlillərin sosial müdafiəsi haqqında" Azərbaycan Respublikasının Qanununa əsasən, əlillərin də digər vətəndaşlarla bərabər öz maraqlarına, qabiliyyətlərinə uyğun həyat sürmələrinə imkan yaradılır.

Ölkəmizdə qanunverici orqan Milli Məclisdir. Milli Məclis xalqın səsverməsi yolu ilə seçilən deputatlardan ibarətdir. İcra hakimiyyəti orqanları Milli Məclisin qəbul etdiyi qanunları yerinə yetirir. Bu orqanlar ölkə prezidentinin başçılığı ilə fəaliyyət göstərir.

2017-ci ildə ölkəmizdə vitse-prezident vəzifəsi də təsis edilib. Respublikanın Birinci vitse-prezidenti Mehriban Əliyevadır. Hazırda o öz fəaliyyətini böyük səylə davam etdirir, ölkə prezidentinin həyata keçirdiyi işlərdə bilavasitə iştirak edir.

Qanunların keşiyində duran hakimiyyət orqanlarından biri də məhkəmələrdir. Bu orqanlar öz səlahiyyətləri çərçivəsində fəaliyyət göstərir və vətəndaşlara xidmət edir.

Bizim də hər birimizin dövlət və cəmiyyət qarşısında müəyyən vəzifələrimiz var. Ailəmizi, xalqımızı, dövlətimizi və bütün insanları sevmək, hörmət etmək, qayğıkeş, ləyaqətli, vəfalı və sədaqətli olmaq hər birimizin vəzifəsidir.

Vətən qarşısında mənəvi borcun nə olduğunu araşdırın.

Yuri Kovalyov

Vətən müqəddəsdir, vətən qiymətlidir. Vətən torpağı toxunulmazdır. Vətəni təkcə "sevirəm" deməklə kifayətlənmək olmaz, hər an onun müstəqilliyinin qorunub saxlanması barədə düşünmək lazımdır. Vətənin keşiyində durmaq, onun torpağının hər qarışı üçün mübarizə aparmaq, lazım gələrsə, canından belə keçmək hər bir vətən övladının vəzifə borcudur.

Gültəkin Əsgərova

Azərbaycanın Babək, Koroğlu kimi xalq qəhrəmanları, Mehdi Hüseynzadə, Həzi Aslanov kimi igid, Çingiz Mustafayev, Samid İmanov, Yuri Kovalyov, Salatın Əsgərova, Gültəkin Əsgərova kimi mübariz övladları olmuşdur. Onlar Vətənin, xalqın azadlığı, xoş həyatı naminə vuruşmuş, öz canlarını qurban vermişlər.

Siz də Azərbaycanın övladlarısınız. Bu torpaqda boya-başa çatırsınız. Bu gün öz borcunuzu oxumaq, təbiəti qorumaq, adət-ənənələrimizə hörmətlə yanaşmaqla yerinə yetirirsiniz. Gələcəkdə isə bununla kifayətlənmək olmaz. Doğma torpağın keçmişini və bu gününü yaxşı bilməklə, gələcəyini düşünüb, sərvətlərini qoruyub çoxaltmaqla, adət-ənənələrinə layiqincə əməl edib, onları gələcək nəsillərə ötürməklə vətəndaşlıq borcunuzu ödəmiş olarsınız.

Samid İmanov

1. *Dövlətin qaçqın və məcburi köçkünlərə etdiyi yardımlar haqqında məlumat toplayın.*
2. *Qanunları qoruyan dövlət qurumlarının vəzifələrinə aid cədvəl qurun.*
3. *"Dövlətim məni qoruyur" mövzusunda esse yazın.*
4. *Ümummilli lider Heydər Əliyevin siyasətini davam etdirən dövlətimizin başçısı İlham Əliyevin gördüyü işlərlə bağlı təqdimat hazırlayın.*

7 Hüquqlarımız qorunur

Müəllim aşağıdakı siyahını Namiqə vermişdi. O bu siyahıya əsasən verilənləri "vəzifələrim" və "hüquqlarım" başlığı altında qruplaşdırmalı idi. Sizcə, o, siyahıdakıları necə qruplaşdıra bilər?

1. *Fikrini azad ifadə edə bilmək;*
2. *Valideynin qayğısına qalmaq;*
3. *Vətəni qorumaq;*
4. *Qida və tibbi yardım ala bilmək;*
5. *Əsgər getmək;*
6. *Təhsil almaq.*

İnsanların hüquq və azadlıqlarının qorunması mühüm və aktual məsələlərdən biridir. Dövlətin əsas vəzifələrindən biri də məhz insanların hüquq və azadlıqlarını müdafiə etməkdir. Bunun üçün yalnız dövlət orqanları deyil, həmçinin *qeyri-hökumət təşkilatları* və *beynəlxalq təşkilatlar* da məsuliyyət daşıyır.

İnsan hüquq və azadlıqlarının qorunması müvafiq qanunverici və icra hakimiyyəti orqanlarının, həmçinin müstəqil məhkəmə sistemi sayəsində təmin edilir.

Milli Məclisdə müxtəlif komitələr fəaliyyət göstərir. Bunlardan biri də İnsan hüquqları komitəsidir.

Hər bir vətəndaşın hüququnun qorunması bizim üçün çox önəmlidir. Vətəndaşlarımızın təhlükəsizliyi də dövlət tərəfindən təmin edilir və bundan sonra da ediləcək.

İlham Əliyev

İnsanların hüquq və azadlıqlarını hansı qurumlar müdafiə edir?

Qeyri-hökumət təşkilatları ictimai birliklər və fərdi şəxslər tərəfindən yaradılan qurumlardır. Bu təşkilatlara ictimai birliklər və müxtəlif fondlar aiddir. Azərbaycan Respublikasının Konstitusiyasına müvafiq olaraq, fəaliyyət göstərən bu təşkilatlar bayraq, emblem və digər

rəmzlərə malik ola bilər. Fondlar, əsasən, yardım və müxtəlif layihələri maliyyələşdirmək məqsədilə yaradılır.

İnsan hüquq və azadlıqlarının qorunmasında beynəlxalq qurumların da rolu böyükdür. 1945-ci ildə yaradılmış Birləşmiş Millətlər Təşkilatının (BMT) Nizamnaməsində bir neçə bənd bilavasitə insan hüquqlarından bəhs edir. Buna əsasən "İnsan hüquqları haqqında ümumi Bəyannamə" hazırlanmış və qısa müddətdə dünya dövlətləri bu sənədi imzalamışdır. Bəşəriyyət gələcəyin qurucuları olan uşaqların hüquqlarının pozulmaması üçün daima narahatlıq keçirir. Buna görə də "Uşaq Hüquqları haqqında" BMT Konvensiyası qəbul edilmişdir. Burada əsas məqsəd uşaqların maksimum müdafiəsidir.

Öz fikirlərini azad deyə bilməyənlərin heç bir azadlığı yoxdur.

Fransua Mari Arue (Volter)

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Birinci vitse-prezident Mehriban Əliyeva yeni tədris kompleksinin sinif otağında

UNICEF BMT-nin Beynəlxalq Uşaq Fondudur. Uşaq hüquqlarının qorunması üçün yaradılmış təşkilatdır.

Dövlətlərarası təşkilat olan Avropa Şurasının əsas məqsədi insan hüquqlarının müdafiəsidir. Təşkilatın Konvensiyasına görə, dövlət insan hüquq və azadlıqlarını qorumağa borcludur.

ATƏT – Avropa Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatıdır. İnsan hüquqlarının müdafiəsinə xüsusi diqqət ayırır. Təşkilatın yekun aktına görə, öz vətəndaşlarının hüquqlarını pozan dövlət beynəlxalq aləmdə sülhsevər siyasət yürüdə bilməz. Buna görə də müasir dövrdə hər hansı bir dövlətdə insan hüquqları pozularsa, digər dövlətlər onun vətəndaşlarının müdafiəsinə qalxır.

Azərbaycanda uşaqların hüquqları dövlətimiz tərəfindən qorunur. Ölkə Prezidenti İlham Əliyevin fəaliyyəti və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın bu sahədə gördüyü işlər daim cəmiyyətin diqqət mərkəzindədir və vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın fəaliyyətini əks etdirən fotolar

Mehriban Əliyevanın Heydər Əliyev Fondunun prezidenti kimi də Azərbaycanın zəngin mədəniyyətinin qorunması və onun dünyada tanınmasında xüsusi rolu var. Onun mədəni və dini abidələrin bərpa olunması, məktəblər, uşaq bağçaları, xəstəxanalar, digər təhsil və səhiyyə müəssisələrinin açılmasında xidmətləri də əvəzolunmazdır. O nəinki ölkəmizdə, dünyada da öz xeyriyyəçiliyi ilə tanınır.

1. *"Azərbaycanda uşaq hüquqları qorunur" mövzusunda esse yazın.*
2. *Uşaq hüquqlarını qoruyan təşkilatların adını və vəzifələrini cədvəldə qeyd edin.*

Təşkilatlar	Vəzifələri

3. *Düzgün çıxışı tapın. Müəyyən etdiyiniz qurumla bağlı məlumat toplayın.*



4. *Azərbaycan Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin fəaliyyəti ilə bağlı məlumat toplayıb təqdimat hazırlayın.*

8 Bizim tələbatlarımız

Dövlətin yerinə yetirdiyi vəzifələri yadınıza salın. Bu vəzifələrdən hansını dövlətin iqtisadi vəzifəsi adlandırmaq olar?

Mənəvi zövq əmək, zəhmət, iradə və fəaliyyət nəticəsində əldə edilir.

Nəsirəddin Tusi

Yaşımızdan, peşəmizdən asılı olmayaraq hamımız iqtisadi proseslərin iştirakçısıyıq. Bu proseslər barədə geniş təsəvvürünüz olmasa da, bilirsiniz ki, insan yaşamaq üçün yeməli, geyinməli və digər zəruri ehtiyaclarını ödəməlidir. Yaşamaq üçün insana lazım olanlar onun *tələbatlarıdır*. Bu tələbatları ödəmək üçün isə *istehsal* tələb olunur. İqtisadiyyatın əsas vəzifəsi məhz istehsaldır.

İstehsal üçün, ilk növbədə, iqtisadi resursların olması zəruridir. Təbiətin insanlara bəxş etdiyi hər şey – faydalı qazıntılar, torpaq, su, təmiz hava, meşələr və s. təmənnasız "hədiyyə"dir. Bütün bunlar *təbii resurslar* adlanır. Bu resurslar istehsal üçün çox vacib amillər hesab olunur. Məsələn, kitab-dəftərimizi hazırlamaq üçün ağacdan, ayaqqabımız üçün dəridən, paltarlarımız üçün isə pambıqdan istifadə edilir.

Bəzi təbii ehtiyatlar tükənə bilər. Gəlin bu haqda fikirləşək. Buna səbəb nədir?

emal olunmamış lif

təmizlənmiş lif

sapın burulması

sap topası

toxuculuq



xam parça

parçanın bəzədilməsi

hazır parça

Parça istehsalı prosesinin sxemi

İstehsal üçün müəyyən dəzgahlar, müxtəlif avadanlıqlar, binalar, nəqliyyat vasitələri və s. olmalıdır. Bunlar iqtisadi vasitələrdir.

Avtomobil istehsalında zəruri olan təbii ehtiyatları və iqtisadi vasitələri müəyyənləşdirin.

Bütün nemətlər içərisində ən gözəli və ən dəyərlisi torpaqdır. Ona qayğı bəsləməklə xalqın güzəranını yaxşılaşdırmaq mümkündür.

Həsən bəy Zərdabi

İstehsal üçün təkcə iqtisadi resursların və vasitələrin olması kifayət etmir. Bu zaman insan əməyi də tələb olunur. İnsan əməyi olmadan istehsal mümkün deyil. Çörəyin süfrəmizə gəlib çıxması üçün insanlardan kimsə buğda əkir və onu becərir, digəri onu dəyirmanda üyüdüb un hazırlayır və nəhayət, çörəkçilər çörək bişirirlər.

Belə bir nəticəyə gəlmək olar ki, iqtisadi resurslar, vasitələr və insan əməyi olmasa, heç nə istehsal edilməz. İnsanların əməyi isə əməkhaqqı ilə ödənilir. Əvvəllər insanların əməkhaqları, əsasən, nağd pulla verilirdi. Müasir dövrdə bu cür ödənişlər, demək olar ki, öz yerini nağdsız ödənişlərə verməkdədir. İqtisadi resursların, vəsaitlərin və s. tələbat məhsullarının ödənişi dünyada, eləcə də ölkəmizdə nağdsız ödənişlər şəklində həyata keçirilir.

İstehsal olunan hər bir məhsul insanların yaşayışının təminatı üçündür. Hər bir məhsulun əldə edilməsində nələrdən istifadə olunur? Bəs bütün bu işlərdə insan əməyinin qarşılığı necə ödənilir?

Siz tez-tez ailədə və digər ictimai yerlərdə bank sisteminə aid ifadələrlə rastlaşırsınız. Valideynlərinizin və digər ailə üzvlərinizin əməkhaqlarını bankomatlardan çıxardıqlarını görmüşsünüz. Qaz, işıq və digər kommunal xərclərin xüsusi ödəniş terminallarında ödənildiyinin şahidi olmuşsunuz. Metro və avtobuslarda ödənişlərin "BakıKART" ödəniş kartından istifadə edilərək ödənildiyini bilirsiniz. Bu cür sistemin tətbiqi, yəqin ki, sizi, az da olsa, düşündürüb.

Metro və avtobuslarda gediş haqqının ödənilməsi məqsədilə istifadə olunan ödəniş kartında balansın artırılması üçün aparat

1. Kart
2. Kartın yerləşdirilməsi üçün yer
3. Nağd pulun ödənişi üçün yer

Ödəniş kartlarından istifadə nə üçün səmərəlidir?

Bəzi insanlar pullarını evdə daxıllarda, bəziləri xüsusi tikilmiş torbalarda saxlayır, yalnız hər hansı bir vacib ehtiyac yarandıqda bu pullardan istifadə edirlər. Bu işdə də sizə banklar kömək edə bilər. Banklar əmanətlərin saxlanılmasına xidmət etməklə yanaşı, ehtiyacları ödəmək üçün kreditlər təklif edir, başqa sözlə, borc pul verir. Bu kreditlərdən düzgün istifadə etməklə bir çox ehtiyacları ödəyə bilərsiniz.

Pullarımızın banklarda saxlanılmasının nə kimi əhəmiyyəti vardır?

Pulların banklarda qorunması daha etibarlıdır. Banklar pulları qorumaqla yanaşı, onlardan əlavə gəlir mənbəyi də yaradır. Hər bir şəxs pullarını adına açılmış hesabda saxlayaraq, onları nağdlaşdırmadan da – bank vasitəsilə xərcləyə bilər.

Yəqin ki, mağazalarda nağd pul vermədən, kartlardan istifadə etməklə alışveriş edən insanları görmüşsünüz. Bəzi filmlərdə, televiziya verilişləri və reklam çarxlarında da bunu müşahidə etmişsiniz. Bu cür ödənişlərə "rəqəmsal ödənişlər" və ya "nağdsız ödənişlər" deyilir. Nağdsız ödəniş zamanı pul nağd verilmir. Bu cür ödəniş daha asan,

təhlükəsiz və nəzarət altında həyata keçirilir. Pulların cibdə və ya pul qabında gəzdirilməsi çətinlik törətməklə yanaşı, itirilməsinə də səbəb ola bilər. Kartların daşınması isə çox asandır. Bu zaman pulu itirmək təhlükəsi yaranmır. Əgər kart itərsə, banka müraciət edərək itirilmiş kartı bağlatdırmaq və yenisini əldə etmək olar. Pullar isə bankda, yəni rəqəmsal yaddaşda saxlanılmaqla qorunmuş olacaq.

1. Şəkillərdəki istehsal sahələrini müəyyənləşdirin.

2. Respublikamızda olan əsas istehsal sahələrinin siyahısını tərtib edin.
3. Çörək və geyim istehsalında hansı iqtisadi resurs və vasitələrə ehtiyac olduğunu müəyyənləşdirin.

ƏTRAF MÜHİT VƏ SAĞLAMLIQ

9 Sağlam həyat tərzi

Bir gün anası Əhmədi həkimə apardı. Həkim Əhmədə bəzi suallar verdi, Əhməd də onları cavablandırdı.

– Oğlum, sən sağlamlığının qayğısına qalırsanmı?

– Bəli.

– Bunun üçün nə edirsən?

– İdman edirəm, meyvə-tərəvəz yeyirəm, vaxtında yatıram, atamla təmiz havada gəzirəm.

– Əhməd, səncə, bunlar sağlamlıq üçün kifayətdirmi?

Əhməd cavab vermədi, ancaq evə qayıdarkən bu barədə çox düşündü. Sizcə, sağlamlığın qorunması üçün bu sadalananlar kifayət edərmi? Nə üçün? Sağlamlığın digər şərtləri hansılardır?

Hər kəsin sağlamlığı öz əlindədir. Əgər biz gün rejiminə əməl etməsək, düzgün qidalanmasaq, təmiz havada gəzməsək, ya da idmanla məşğul olmasaq, tədricən öz sağlamlığımızı itirə bilərik. Amma sağlam olmaq üçün yalnız bunlar kifayət deyil. Fiziki sağlamlıqla yanaşı, mənəvi və emosional sağlamlıq da hər birimiz üçün olduqca vacibdir.

Verilmiş hadisələri sağlamlığın (fiziki, mənəvi, emosional) şərtləri baxımından təhlil edin.

Ülkər idmanla məşğul olur. Yaxşı oxuyur. Valideynlərinə və müəllimlərinə hörmətlə yanaşır. Müəllimin suallarına cavab verəndə isə çox həyəcanlanır. Evdə tək qalanda qorxur. Bu qorxu və həyəcanı dəf etməkdə çətinlik çəkir.

Natiq yaxşı oxuyur. Musiqiyə qulaq asmağı və rəsm çəkməyi sevir. Lakin sinif yoldaşları ilə rəftarı kobuddur.

Fiziki cəhətdən sağlam olmaq üçün mütləq gün rejiminə əməl edilməlidir. Bəs gün rejimi nədir? Gündəlik həyatı müəyyən qaydada qurmaq gün rejimi hesab olunur. Lakin bilməlisiniz ki, hər yaşın özünə uyğun gün rejimi var. Öz yaşınıza uyğun gün rejiminə əməl etməmək sağlamlığınıza ziyandır. Məktəblinin gün rejiminə *vaxtında yemək, normal istirahət, yuxu rejimi, səhər idmanı, açıq havada gəzmək, dərsləri vaxtlı-vaxtında oxumaq və s.* daxildir. Lakin bu rejim düzgün qurulmalıdır ki, sadalananların hər birinə vaxt çatsın.

İnsan həmişə eyni vaxtda yedikdə, yatdıqda, işlədikdə bu, vərdişə çevrilir. Orqanizmin sağlamlığı üçün düzgün qidalanmaq çox vacibdir. Vitaminlərlə zəngin olan meyvə və tərəvəzlərə üstünlük verilməlidir. Yeməkdən sonra dərhal yatmaq isə orqanizmə pis təsir göstərir, narahatlığa səbəb olur.

Gün rejiminə düzgün əməl etmək sağlamlıq, normal yuxu, səhərdən axşamadək xoş əhvali-ruhiyyə deməkdir.

Yəqin ki, *idmanla* məşğul olmağı sevirsiniz. İdmanla daim məşğul olan insan *güclü*, *gümrah* və *çevik* olur. Əzələlər hərəkət etdiyindən qan dövranı yaxşılaşır, orqanizm yaxşı inkişaf edir. Lakin idman növü yaşa uyğun seçilməlidir.

İnsanın mənəvi cəhətdən sağlamlığı onun mənsub olduğu ailəni, xalqı, dövləti, bütün insanları sevməsi və hörmət etməsi, qayğıkeş, ləyaqətli, vətənpərvər, vəfalı, sədaqətli olması deməkdir.

İnsan daim müsbət və mənfi emosiyalarla qarşılaşır. Bunlara sevinc, qorxu, həyəcan və s. aid edə bilərik. Emosional cəhətdən sağlam insan mənfi emosiyaları özündən uzaqlaşdırmağı, hisslərini cilovlamağı, qəzəbinə hakim olmağı bacarır.

Musiqi, rəsm, bədii əsərlər, kinofilmlər və s. emosional sağlamlığa müsbət təsir göstərir. Daim mənfi emosiyalardan uzaq olmağa çalışın.

Unutmayın ki, fiziki məhdudiyyətli insanlar da cəmiyyətdən kənar qalmırlar. Dövlətin qayğısı nəticəsində onların da cəmiyyətin bir hissəsi olması üçün şərait yaradılır. Fiziki məhdudiyyət arzuların reallaşdırılması, hədəflərə çatmaq üçün maneə deyildir.

1. *Dürüst, qamətli və güclü bir insanın sağlamlığının digər göstəriciləri nələr ola bilər?*
2. *Gün rejiminizi yazın və onun düzgün qurulduğunu əsaslandırın.*
3. *Cədvəldə verilmiş idman növlərinin əhəmiyyətini izah edin:*

İdman növü	Əhəmiyyəti
Üzgüçülük	
Xizəksürmə	
Atçılıq	
Atıcılıq	
Güləş	
Bədii gimnastika	

4. *"Mənim hobbim" mövzusunda kiçik inşa yazın.*

Təhlükəsiz kompüter 10

Anar 5-ci sinifdə oxuyur. Müəllimi ona "Təhlükəsiz kompüter" mövzusunda təqdimat hazırlamağı tapşırıb. O bunu necə edə bilər? Sizcə, hazırladığı təqdimatda Anar nələri qeyd etməlidir?

Kompüter, demək olar ki, hər bir insanın həyatına daxil olub. Artıq kompüterdə işləmək yazıb-oxumaq qədər sadələşib. Kompüterdən təhsil sahəsində də geniş istifadə olunur. Yəqin ki, siz əvvəllər bu cihazda daha çox oyunlar oynayar, şəkillər çəkərdiniz. Hazırda isə kompüterdən istifadə həyatınızda müəyyən bir yer tutur. Elektron kitabları əldə etmək, xarici dil öyrənmək, layihə və təqdimat hazırlamaq, şəkillər üzərində işləmək və s. üçün kompüterdən istifadə edə bilərsiniz. Düzdür, həm oyunlar, həm də sadalanan bu əməliyyatlar olduqca maraqlıdır. Lakin unutmayın ki, kompüterdən çox istifadə insan orqanizminə mənfi təsir göstərir.

Kompüterlə necə davranmaq lazımdır ki, xoşagəlməz və təhlükəli hallarla qarşılaşmayaq? Kompüter otaqlarında hansı təhlükəsizlik qaydalarına əməl olunmalıdır? Sinif yoldaşlarınızla müzakirə edin.

Kompüterdən istifadə edərkən

Həkimlər hesab edirlər ki, kompüterdə 30 dəqiqədən artıq fasiləsiz işləmək olmaz. Hər 15 dəqiqədən bir gözləri monitorun ekranından çəkərək uzağa baxmaq lazımdır. Bunu etdikdə görmə qabiliyyətinin pozulmasının qarşısını almaq olar.

1. *Lalə istirahət vaxtının çoxunu kompüter qarşısında keçirir. Siz bunun ziyanlı olduğunu ona necə izah edərsiniz?*
2. *Cədvəl çəkib kompüterin faydalarını və zərərlərini qeyd edin, müqayisə aparın.*
3. *Kompüterdən istifadənin zərəri haqqında kiçik təqdimat hazırlayın.*

Sağlamlığımızı qoruyaq 11

Nəzrin kənddə yaşayır. Hərdən ailəsi ilə birgə şəhərə – əmisigilə qonaq gəlir. Həm kənd, həm də şəhər həyatı onun üçün maraqlıdır. Nəzrin hesab edir ki, şəhərdə təhlükə ola bilməz. Çünki burada meşə yoxdur ki, insan azsın, vəhşi heyvanlar yoxdur ki, onların hücumuna məruz qalsın.

Sizcə, Nəzrinin düşüncələri doğrudurmu? Nə üçün?

Həyatımızda müxtəlif hadisələrlə qarşılaşırıq. Onların bir qismi gözlənilməz olmaqla yanaşı, sağlamlığımız, həyatımız üçün təhlükə yarada bilər. Bəzən ən böyük təhlükələrin baş verməsinə insan fəaliyyəti səbəb olur. Kimya zavodlarında olan partlayışlar, təyyarə qəzaları, qatarların toqquşması, elektrik qəzaları və s. həyatımızda rastlaşdığımız bədbəxt hadisələrdir.

Göstərilən hallarda insan həyatı üçün hansı təhlükələr yarana bilər?

Biz hesab edirik ki, evdə təhlükələrdən uzağıq. Lakin çox vaxt ehtiyatsızlıqdan təhlükə ilə üz-üzə qalırıq. Ona görə də evdə üzləşəcəyimiz təhlükələri və onlardan xilasolma yollarını hamımız bilməliyik.

Evdə ən çox rastlaşa biləcəyimiz təhlükələr:

- *yanğın;*
- *zəhərlənmə;*
- *hündürlükdən yıxılma;*
- *elektrik vurması;*
- *qaz sızması;*
- *qapının bağlanması və s.*

Gündəlik həyatımızda əhəmiyyətli rol oynayan elektrik cihazlarını sadalamaqla qurtarmaz: televizor, ütü, paltaryuyan maşın və s. Evdəki elektrik avadanlıqları ilə ehtiyatsız rəftar etdikdə nəinki mənzildə, hətta böyük bir binada fövqəladə hal yarana bilər.



Elektrikin insana təsiri cərəyanın gücündən və onunla "təmas" şəraitindən asılıdır. Bu halda yanıq, qıcolma, tənəffüsün dayanması, hətta ölüm hadisəsi kimi xoşagəlməz hallarla rastlaşmaq mümkündür. Elektrik naqilində olan cərəyanın gücü ölümə səbəb ola bilər. İnsan izolyasiya olunmamış (üstüaçıq) naqilə toxunarsa, onun sağlamlığı üçün təhlükə yaranar. Mənzildə, evdə və ya bağda yanğın bizdən asılı olmayan səbəblərdən də (məsələn, ildırım çaxması nəticəsində) baş verə bilər. Ancaq odla ehtiyatsız davransaq, nasaz elektrik cihazlarından istifadə etsək, bir cərəyan qutusuna bir neçə elektrik avadanlığını eyni vaxtda qoşsaq, özümüz yanğına səbəb olarıq.

Verilmiş sualları cavablandırın:

- *Məktəbə kiminlə gəlirsiniz?*
- *Bir çox şagirdlərin böyüklərlə gəlməsinin səbəbi nədir?*

İnsanların sıx olduğu yerlərdə bəzən oğurluq halları ilə rastlaşırıq. Bu zaman əvvəlcə pulun evdə unudulmadığına əmin olmalı, qısa müddət ərzində polis orqanlarına müraciət etməlisiniz.

Bəzən təhlükəyə tanımadığınız insanlar səbəb olur. Onların həddindən artıq mehriban və ya aqressiv davranışları ilə qarşılaşdıqda ətrafdakılardan kömək istəyin və uzaqlaşmağa çalışın. Tanımadığınız insanların maşınına minməyin, onlardan hədiyyə almayın.



Təbii və *texnogen* xarakterli hadisələrin qarşısında aciz qalmamaq üçün özümüzü qorumağı, başqalarına kömək etməyi bacarmalıyıq.

1. *Evdə və ictimai yerlərdə yanğın baş verərsə, bu zaman nə etmək lazımdır?*
2. *Müasir dövrdə texnogen xarakterli böyük fəlakətlərə səbəb olmuş hadisələr haqqında məlumat toplayın.*
3. *Aşağıdakı cədvəldə qeyd olunan yanğınların səbəblərini və təhlükəsizlik tədbirlərini araşdırıb qeyd edin.*

Yanğının baş verdiyi yer	Yanğının səbəbləri	Təhlükəsizlik tədbirləri
meşədə		
məktəbdə		
evdə		

12 Yol nişanları nə üçündür?

Şəklə əsasən sualları cavablandırın:
- *Piyadalar yerüstü keçiddən istifadə etmədikləri halda nə baş verə bilər?*
- *Hansı piyadalar qaydalara əməl edirlər? Fikrinizi əsaslandırın.*

Yaşayış məntəqələri – şəhərlər, qəsəbələr, kəndlər inkişaf edib böyüdükcə yol şəbəkəsi genişlənir, nəqliyyat vasitələrinin və yol hərəkəti iştirakçılarının sayı artır. Bu səbəbdən küçə və prospektlərdə, avtomobil yollarında və avtomagistrallarda hərəkət gündən-günə çətinləşir.

Hazırda dünyanın bir sıra ölkələrində yük, minik, xüsusi təyinatlı avtomobillər istehsal edilir. Müasir avtomobil sənayesində sürücü və sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi başlıca meyardır. Nəqliyyat vasitələri, xüsusilə avtomobillər həyatımızda mühüm yer tutsa da, problemlərə də yol aça bilər. Belə halların baş verməməsi üçün yol hərəkəti ilə bağlı qaydaları yaxşı öyrənməli və tələblərə ciddi əməl etməliyik.

Aşağıdakı cədvələ əsasən yol qəzalarının səbəblərini və təhlükəsizlik tədbirlərini müəyyənləşdirib qeyd edin.

Yol qəzalarının səbəbləri	Təhlükəsizlik tədbirləri

Piyadalar, sərnişinlər və sürücülər yol hərəkəti iştirakçılarıdır. Onların hərəkətini tənzimləmək və təhlükəsizliyini təmin etmək məqsədilə yollarda, küçə və prospektlərdə müvafiq yol nişanları quraşdırılır, nişanlanma xətləri çəkilir. Təhlükəsizliyimizin təmin olunması üçün yol nişanlarını və nişanlanma xətlərini tanımalı, onların tələbinə uyğun hərəkət etməliyik.

Bəzi yol nişanlarının izahı



Yol hərəkəti qaydalarını yalnız sürücülərin bilməsi kifayət deyil. Bəs biz piyada, sərnişin və ya velosipedçi qismində yol hərəkətinin iştirakçısı kimi hansı qaydalara əməl etməliyik? Fikirlərinizi əsaslandırın.

Avtomobil və onun hərəkəti zamanı təhlükəsizlik problemləri üzrə Birinci Beynəlxalq Konfrans 1909-cu ildə Paris şəhərində keçirilmişdir. Bu konfransda ilk avtomobil Konvensiyası və ilk dəfə olaraq yol hərəkətini tənzimləyən dörd yol nişanı qəbul edilmişdir. Bunlar yolayrıcı, şlaqbaum, nahamar yol və əyri yol nişanları idi. Bu nişanların maneələrdən 250 metr qabaqda qurulması nəzərdə tutulurdu.

Yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi hələ qədimdən mövcud olmuşdur.

Yol ilk dəfə eramızdan əvvəl Roma imperiyasında salınmışdır. "Bütün yollar Romaya aparır" ifadəsi də elə o vaxtlar yaranmışdır. Romada yolların örtüyü daşdan idi və hər kilometrdən bir kənarlarda daş dirək qoyulmuşdu.

İlk salınmış yollarda hərəkət soltərəfli olmuşdur. Bu qayda atlıların və piyadaların təhlükə ilə üzləşdikləri zaman özlərini sağ əllə müdafiə edə bilməsinə şərait yaratmaq məqsədilə qəbul edilmişdir.

Yol qəzalarının qurbanlarına çevrilməmək üçün yol hərəkəti qaydalarını yaxşı bilmək və onlara əməl etmək vacibdir. Yoldaşlarınıza da bunu tövsiyə edin. Unutmayın ki, yol hərəkəti qaydalarına riayət olunması sizin təhlükəsizliyiniz üçün vacibdir.

Şəkillərdəki piyadalar hansı qaydalara əməl etməlidirlər? Bu qaydalar nə üçün əhəmiyyətlidir?



1. *Göstərilən yol nişanlarının nəyi ifadə etdiyini yazın.*

Yol nişanları	Nəyi ifadə edir?	Əhəmiyyəti

2. *Böyük şəhərlərdə maşınlar hədsiz çoxdur. Bu, nəqliyyatın işini çətinləşdirir. Siz bu çətinliyi aradan qaldırmaq üçün hansı təklifləri irəli sürərdiniz?*
3. *Yaşadığınız ərazidə piyadaların təhlükəsizliyini təmin etmək məqsədilə hansı yol nişanları qoyulmuşdur?*
4. *Verilmiş mətni tamamlayın:*
   Vüsal 5-ci sinifdə oxuyur. O, atası ilə rayonda yaşayan nənəsinin yanına gedirdi. Yolda öz-özünə düşünürdü: "Maraqlıdır, görəsən, yollarda qoyulmuş bu nişanlar olmasa, nə baş verər?"...

13 Yol hərəkəti qaydalarına əməl edək!

Şəkillərə əsasən kimin düz, kimin səhv hərəkət etdiyini müəyyənləşdirin.

1

4

2


5

3

6

Çox zaman bədbəxt hadisələr yalnız sürücülərin deyil, həmçinin piyadaların təqsiri üzündən baş verir. Xüsusilə uşaqların yol hərəkəti qaydalarını bilməmələri, yaxud onlara əməl etməmələri xoşagəlməz hadisələrin baş verməsinə səbəb olur.

Odur ki yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi piyadaların *diqqətli olmalarından və onların yolda davranış qaydalarına əməl etmələrindən* asılıdır.

!

Görünmə zonasında keçid və ya yolayrıcı olmadıqda piyadalar hər iki tərəfdən yaxşı görünən sahələrdə yolu keçə bilərlər.

Dünyanın ən enli yollarından biri olan "Monumental Aksis"də (Braziliya) eyni anda 12 maşın yan-yana hərəkət edə bilir.

Yol hərəkəti qaydalarını öyrənib ona əməl etməklə həm də özünüzü qorumaq vərdişləri əldə etmiş olursunuz.

Siz ildən-ilə böyüyür, küçə və yollarda sərbəst hərəkət edirsiniz. Təbiidir ki, valideynləriniz və müəllimləriniz hər zaman hərəkətlərinizə nəzarət edə bilməzlər. Odur ki yol hərəkəti qaydalarını bilməyiniz və küçədə onlara əməl edərək intizamlı olmağınız çox vacibdir.

Siz bəzi yol hərəkəti qaydalarını bilirsiniz. Bu qaydalar hansılardır?

İntizamlı piyada olmaq üçün, hər şeydən əvvəl, təhlükədən qorunmalı və yol hərəkəti qaydalarını bilməlisiniz. Əks təqdirdə, küçədə istədiyiniz kimi hərəkət edərsiniz. Elə düşünürsünüz ki, çox cəld olsanız, hətta son anda belə hərəkət edən nəqliyyatın qabağından qaçıb keçə bilərsiniz. Bu əsla belə deyil. Unutmayaq ki, nəqliyyat vasitəsi sürətini dərhal azalda bilməz. Çünki sürücünün əyləci basmasına baxmayaraq, nəqliyyat vasitəsinin dayanması müəyyən vaxt tələb edir.



Yol polisi tövsiyə edir:

Qaydalara əməl edin!

Uşaqları dəstə halında yalnız sutkanın işıqlı vaxtı və böyüklərin nəzarəti altında səki ilə, piyada yolu ilə, bunlar olmadıqda isə yol çiyni ilə aparmağa icazə verilir.

- *Svetoforla nizamlanan yol qovşaqlarında piyadalar üçün nəzərdə tutulmuş "keçin" və "dayanın" işıq göstəricilərinə ciddi əməl edilməlidir.*
- *Sutkanın qaranlıq vaxtı yolun işıqlandırılmayan hissələrində yalnız görünüş dairəsində nəqliyyat vasitəsi olmadıqda yolu keçmək olar.*
- *Dayanmış nəqliyyat vasitəsinin arxasından yolun hərəkət hissəsinə çıxmazdan əvvəl yaxınlaşan nəqliyyat vasitəsinin olmadığını yəqin etmək lazımdır.*
- *Küçəni və yolu keçərkən piyadalar onlar üçün nəzərdə tutulmuş xüsusi işarələr, xətlər və göstəricilərlə işarələnmiş yeraltı və yerüstü keçidlərdən istifadə etməlidirlər.*
- *Yolun hərəkət hissəsində zərurət olmadıqda ləngimək və dayanmaq olmaz.*
- *Hərəkət zamanı nəqliyyat vasitəsini idarə edən sürücünün diqqətini yayındırmaq olmaz.*
- *Küçələrdə hərəkət edərkən səkilərdən istifadə etmək lazımdır.*

1. Sürücülərə və piyadalara qoyulan tələblər eyni ola bilərmi? Nə üçün?
2. Yol hərəkəti qaydaları olmasa, nə baş verə bilər? Buna uyğun kiçik mətn yazın.
3. Aşağıdakılardan hansı doğrudur?
a) Sürücülərlə piyadalar eyni qaydalara əməl etməlidirlər.
b) Piyadalar küçəni keçmək üçün yalnız bu məqsədlə ayrılmış piyada keçidlərindən istifadə etməlidirlər.
c) Yol hərəkəti qaydalarını bilmək o qədər də vacib deyil.
d) Yol hərəkəti qaydalarına yalnız piyadalar əməl etməlidirlər.
e) Yol qəzaları yalnız sürücülərin ehtiyatsızlığı üzündən baş verir.

TƏBİƏTİ GƏZƏK VƏ TANIYAQ

14 Təbiətdəki cisim və maddələr

Şəklə əsasən otaqdakı cisimləri müəyyənləşdirin.



Daş, ağac, top, qlobus, dəftər, radio, televizor və s. cisimlərdir. Onların bir hissəsini insan düzəltmişdir, digərləri isə təbiətdə mövcuddur.

Cisimlərin müəyyən forması və həcmi olur. Eyni həcmli, müxtəlif formalı cisimlərlə yanaşı, müxtəlif həcmli, eyni formalı cisimlərə də rast gəlmək mümkündür.

İlk dəmir əşyalar eramızdan 2000 il əvvəl Misirdə, Assuriyada, Hindistanda və Çində düzəldilmişdir.

Bir parça plastilindən hazırlanmış iki müxtəlif fiqur eyni həcmli, lakin müxtəlif formalı olur.

Müxtəlif böyüklükdə olan iki qaşıq isə eyni formalı, lakin müxtəlif həcmli cisimlərdir.

Ətrafımızdakı cisimlər müxtəlif maddələrdən təşkil olunmuşdur. *Su, şüşə, rezin, kauçuk, şəkər, yağ* və s. maddələrdir. Eyni maddədən müxtəlif cisimlər, müxtəlif maddələrdən isə eyni cisimlər hazırlana bilər. Məsələn, qələmin gövdəsi metaldan və plastik maddələrdən, qazanlar isə mis, alüminium və digər metallardan hazırlana bilər.

Şəkillərdəki əşyalar nə üçün bu cür qruplaşdırılmışdır?

Maddələri necə fərqləndirək?

Təbiətdə milyonlarla maddə mövcuddur. Onların bir qismi təbii, bir qismi isə süni maddələrdir.

Cisim və maddələr arasında daim qarşılıqlı əlaqə mövcuddur. Maddələrdən müxtəlif cisimlər düzəltmək, bir maddədən başqa maddə almaq mümkündür.

Təbiətdəki maddələr bir-birindən fərqlənir. *Su, benzin, kerosin* və s. maye, daş, dəmir, buz və s. isə bərk maddələrdir.

Təbiətdə olan bütün maddələrin, onların xassələrinin öyrənilməsi üçün müxtəlif üsullardan istifadə olunur.

1. Fikirləri tamamlayın:
   - Yemək bişirdiyimiz qazan taxtadan hazırlansa, ...
   - Qayçı plastik materialdan olsa, ...
   - Ayaqqabılarımız şüşədən hazırlansa, ... baş verər.

2. Verilmiş cisimlər hansı maddələrdən hazırlanmışdır? Qruplaşdırın.

3. Düzgün çıxışı müəyyən edin.



4. Tarixən hansı əmək alətlərindən istifadə olunduğunu və onların nədən hazırlandığını araşdırın.

5. Krossvordu tamamlayın:

1) gül üçün qab
2) mətbəx əşyası
3) nəqliyyat vasitəsi
4) dəmirçi aləti
5) kənd təsərrüfatı aləti



Mühit amilləri və təbiət hadisələri 15

Ətrafınıza diqqətlə baxsanız, müxtəlif canlılar görərsiniz.

İnsan, heyvan, bitki, göbələk və digər canlı orqanizmlərin yaşadığı şərait təbii mühit adlanır. Mühit və orqanizm bir-biri ilə vəhdət təşkil edir. Bütün canlı orqanizmlər müəyyən mühitdə yaranmış və ona uyğunlaşmışdır. Orqanizm daim onu əhatə edən mühitdəki amillərin təsirinə məruz qalır. Bu amillər hansılardır?

Canlılara ətraf mühitdən təsir edən amillər (hava, işıq, temperatur, rütubət, bakteriyalar, bitkilər, heyvanlar və s.) *mühit amilləri* və ya *ekoloji amillərdir*. Bu amillər canlı və cansız olmaqla iki yerə ayrılır. Hər hansı bir amil kəskin dəyişərsə, həmin mühitdəki orqanizmlərin yaşaması çətinləşər, bu isə tədricən onların məhvinə gətirib çıxara bilər.

Təbiətdə əsas cansız ekoloji amillər işıq, temperatur və su hesab olunur.

Əgər *işıq* olmasa, bitkilər məhv olar. Belə ki uzun müddət qaranlıq otaqda saxlanılan otaq bitkisi saralır və solur. Heyvanların çoxu günün maksimal uzun olduğu yaz və yay aylarında daha fəal olur və nəsil verib çoxalır.

Canlıların yaşaması üçün temperatur vacibdir. Orqanizmlərin əksəriyyəti güclü şaxtalara, yaxud çox yüksək temperatura dözə bilmir və məhv olurlar.

Dağlara qalxdıqca temperatur azaldığından dağlıq ərazilərdə soyuğadavamlı bitki və heyvanlar yaşayır.

Canlıların həyatında *su* vacib ekoloji amillərdən biridir. Su həyatın mövcudluğunun şərtidir.

Qurbağaların əksər növləri harada yaşamasından asılı olmayaraq, su mühitində çoxalır.

Suyun canlıların həyatındakı rolunu yoldaşlarınızla müzakirə edin.

Ətraf mühitin canlı amilləri deyərkən, əsasən, *bakteriyalar, göbələklər, bitkilər* və *heyvanlar* nəzərdə tutulur. Bu canlılar bir-birinə təsir edirlər. Məsələn, otyeyən heyvanlar bitkilərlə, yırtıcı heyvanlar isə, əsasən, otyeyən heyvanlarla qidalanır. Ona görə də canlılar arasında daimi *qida zənciri* mövcuddur.

Təbiətdə müxtəlif dəyişikliklər baş verir. Bu dəyişikliklərə hadisələr deyilir. *İlin fəsillərinin dəyişməsi, Günəşin çıxması və batması, şimşək* və *ildırım çaxmaları, Günəş* və *Ay tutulmaları, vulkan* və

zəlzələlər, suyun donması və *buxarlanması, buzun əriməsi, çayların daşması, bitkilərin böyüməsi və çiçəkləməsi, heyvanların çoxalması, yazda cücülərin görünməsi* təbiət hadisələridir.

Təbiət hadisələrinin bir qismi bəzən problemlər yaradır. Məsələn, respublikamız üçün o qədər də xarakterik olmayan güclü yağışlar və istilər təbiətə, həm də insanlara xeyli ziyan vurur.

Çəyirtkələrin hücumu

Güclü yağışlar təbiətə və insanlara nə kimi ziyan vura bilər? Sinif yoldaşlarınızla müzakirə edin.

Çayın daşması

Təbiətdə daim *qeyri-adi hadisələr* baş verir. Bəzi illər havalar kəskin isti, bəzən də soyuq və yağıntılı ola bilər. Hazırda dünyada qlobal iqlim dəyişikliyi müşahidə edilir. Bu isə, öz növbəsində, planetimizin şirin su ehtiyatlarının tükənməsinə səbəb olur. Bütün sadalanan bu proseslər cansız təbiətdə baş verir. Lakin anomal hadisələrə yalnız cansız təbiətdə deyil, həm də canlı təbiətdə rast gəlirik. Buna yayda quraqlıq zamanı bəzi cücülərin sayının kütləvi surətdə artmasını misal göstərmək olar. Hətta bəzən elə olur ki, kəpənəklər çoxalarkən onların tırtılları böyük bir meşənin ağaclarının yarpaqlarını məhv edir.

Daha bir misal: çəyirtkələrin, gəmiricilərin kütləvi çoxalması təbiətdə *bioloji tarazlığa* təsir göstərir. Çəyirtkələr qarşılarına çıxan bütün yaşıl bitkiləri məhv edir. Belə hallar kənd təsərrüfatına böyük ziyan vurur.

1. Düzgün çıxışları tapın:



2. Bakteriyalar bitki və heyvan qalıqlarını çürüdür. Təbiətdə bütün bunlar olmasa, nə baş verər?
3. Su hövzələrinin çirklənməsi, meşələrin qırılması həşəratların azalmasına səbəb olur. Təbiətdə həşəratlar olmasa, nə baş verər?
4. Şam ağacının aşağı hissəsindəki budaqlar tez quruyur. Bunun səbəbini araşdırın.

5. Cansız və canlı amilləri seçin.

Təbiətin qəzəbi

16

Biz vaxtaşırı dünyanın müxtəlif ölkələrində baş verən fövqəladə hadisələr haqqında kütləvi informasiya vasitələrindən məlumat alırıq.

Fövqəladə hadisə nədir? Bizim sağlamlığımızla nə əlaqəsi vardır?



Vulkan

Təbiət hadisələrindən *zəlzələ, vulkan püskürməsi, daşqın, sel, torpaq sürüşməsi, sunami, tufan, tornado* və s. fövqəladə hadisələrə aid edilir.

Fövqəladə hadisələr təbii və texnogen olmaqla qruplaşdırılır.

Elm və texnikanın nailiyyətlərinə baxmayaraq, biz tez-tez təbii fəlakətlərin qarşısında aciz qalırıq. Bəzən təbii fəlakətlər minlərlə insanın həyatına son qoyur.

1667-ci ildə baş verən Şamaxı zəlzələsi Azərbaycan tarixində ən dəhşətli zəlzələ kimi qeyd olunur.

Sunami

Sakit okeanın qərbində qasırğanı tayfun, Hindistanda siklon, Avstraliyada isə villi-villi adlandırırlar.

Zəlzələ ən böyük dağıdıcı qüvvəyə malik olan təbii fəlakətdir. O həm quruda, həm də suda baş verə bilər. Yer qabığının çatlaması, sunamilərin yaranması və s. hadisələrlə nəticələnən zəlzələlər həmişə öz dağıdıcı qüvvəsi ilə insana böyük ziyan vurur. Güclü zəlzələlər zamanı çoxlu insan həlak olur, evlər uçur, şəhərlər dağılır. İnsanların uzun illər boyu qurub-yaratdıqlarını zəlzələ bir anda məhv edə bilir. Ən güclü zəlzələlər 12 bal gücündə olur.

Bizim ölkəmizdə də zəlzələlər baş verir. XII əsrdə Gəncədə baş vermiş zəlzələ çoxlu insan tələfatı ilə nəticələnmiş və şəhər yerlə yeksan olmuşdu. Ötən əsrin əvvəllərində baş verən zəlzələ Şamaxı şəhərini tamamilə dağıtmışdı.

2015-ci il dekabrın 4-də güclü şimal küləyi nəticəsində Xəzər dənizində "Günəşli" yatağının dərin dəniz özülündə sualtı qaz xəttinin dayaq borusu qırılmış, nəticədə şiddətli yanğın baş vermişdir.

Bu hadisənin ətraf mühitə təsirini izah edin və qiymətləndirin.

Ən ağır təbii fəlakətlərdən biri də *daşqındır*. Bu, dənizdə, göldə, çayda suyun səviyyəsinin kəskin qalxması və ətrafı su basması deməkdir. Daşqının əsas səbəbi güclü leysan, intensiv qar əriməsi və s. ola bilər. Daşqın qəfil baş verir və bir neçə saatdan 2-3 həftəyə qədər davam edir. Binaları, yolları, körpüləri, evləri yararsız hala salır, kənd təsərrüfatına ziyan vurur. Daşqınlar Azərbaycan üçün xarakterik təbiət hadisəsidir.

Qar uçqunu, sel, torpaq sürüşməsi – bütün bu təbiət hadisələri dağlıq ərazilərdə baş verir və insanlar üçün böyük təhlükə yaradır.

1. Şəkillərdə təsvir olunmuş hadisələr nəticəsində yarana biləcək təhlükələrin xüsusiyyətlərini cədvəlin müvafiq xanalarında qeyd edin.

Fövqəladə hadisələr	Xüsusiyyətlər	Yarana biləcək təhlükələr

2. Sunami zamanı baş verə biləcək fəlakətlərin siyahısını tərtib edin.
3. Güclü daşqınların vurduğu ziyana aid esse yazın.
4. Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyinin vəzifələri haqqında məlumat toplayın.
5. Son dövrlərdə respublikamızda baş vermiş fövqəladə hadisələrin siyahısını tərtib edin.

17 Günəş sisteminda baş verən hadisələr

Günəş sistemindəki planetlərin Günəşdən eyni istiqamətdə bir düz xətt boyunca düzülməsi "Planetlərin paradı" adlanır.

Bu, astronomik hadisədir. Günəş sistemində başqa hansı hadisələr baş verir?



Planetlərin paradı

Günəş sisteminin bütün planetləri Yupiter planetinin içərisinə yerləşə bilər.

Kainat (kosmos) sonsuzdur. Kainatda çoxsaylı səma cisimləri – ulduzlar, planetlər, peyklər, asteroidlər, kometalar, meteoritlər və s. vardır. Bu səma cisimləri bir-biri ilə qarşılıqlı əlaqədə olub bir sistem əmələ gətirir. Bu sistem *qalaktika* adlandırılır. Kainatda milyonlarla qalaktika mövcuddur.

Bizim qalaktika *"Süd yolu"* və ya *"Saman yolu" da* adlanır. "Süd yolu"nda Yerə ən yaxın ulduz Günəşdir. O çox da böyük ulduz deyil. Bizə yaxın olduğu üçün böyük görünür. Günəşin ətrafında *8 planet* dövr edir.

Bu planetlər çoxlu sayda digər göy cisimləri ilə birlikdə *Günəş sistemini* əmələ gətirir.

Günəşə ən yaxın planet *Merkuri*, Merkuridən sonra *Veneradır.* Günəşə yaxınlığına görə Veneradan sonra *Yer, Mars, Yupiter, Saturn, Uran* və *Neptun* planetləri gəlir.

Marsdakı dağların hündürlüyü 20–25 kilometrə çatır.

Venera Yerə ən yaxın planetdir. Yer "8 kosmik səyyah" ailəsində 3-cü planetdir. Biz kürəşəkilli nəhəng, təbii "kosmik gəmi"nin sakinləriyik. Bizim planet Merkuri, Mars və Veneradan bir qədər böyükdür, Yupiter, Saturn və Urandan isə çox kiçikdir. Yer kürəsinin ətrafında bir dəfə tam dolanmaq üçün 40 min kilometr yol getmək lazımdır.

Planetlər Günəşin ətrafında fırlandığı kimi, planetlərin də ətrafında peyklər dolanır. Yerin peyki Aydır. Merkuri və Veneranın peyki yoxdur.

Günəş sistemində bir sıra hadisələr baş verir: Günəş və Ay tutulmaları, planetlərin paradı, hərəkəti və s.

Ay tutulması

Yer kürəsi də bütün digər planetlər kimi daim hərəkət edir. Yerin iki cür hərəkəti vardır:

1. Yerin öz oxu ətrafında hərəkəti

Bu vaxt nə baş verir?

Yer kürəsi öz oxu ətrafında hərəkətdədir. O öz oxu ətrafında tam dövrəni 24 saata (bir sutka) başa vurur. Bu hərəkətin nəticəsində gecə və gündüz əvəzlənməsi baş verir. Yer kürəsinin Günəş işığı düşən hissəsində gündüz, əks tərəfində isə gecə olur.

2. Yerin Günəş ətrafında hərəkəti

Bu zaman nə baş verir?

Yer təkcə öz oxu ətrafında deyil, həm də Günəşin ətrafında hərəkət edir. Yer Günəş ətrafında 1 dövrəni 365 günə, yəni 1 ilə başa vurur. Bu da planetimizdə fəsillərin dəyişməsinə səbəb olur.



1. *Bəzi ölkələrdə yalnız yay fəsli müşahidə olunur. Bunun müsbət və mənfi tərəflərini müəyyənləşdirin.*
2. *"Planetlərin paradı" haqqında məlumat toplayın.*

Ekoloji mühitin canlılara təsiri 18

Qaranquşlar, bülbüllər payızdan yaza qədər yuvalama yerlərini tərk edirlər. Sizcə, buna səbəb nədir?

Təbiətdə baş verən dəyişikliklər canlılara fərqli formada təsir göstərir. Orqanizmlər bu dəyişikliklərə müxtəlif cür uyğunlaşır. Kərtənkələlər isti günlərdə çox fəal, soyuq havalarda isə azhərəkətli olur. Yarasalar, ayılar, kirpilər qışda yem azaldığından, hava pisləşdiyindən qış yuxusuna gedir.

Bakteriyaların bəziləri yüksək (+146°C) temperatura, şimalda yaşayan bitki və heyvanlar isə aşağı (–70°C) temperatura belə dözür.

İynəyarpaqlı ağaclar ən soyuğadavamlı ağaclardır.

Elə orqanizmlər də var ki, onlar mühit dəyişikliyinə o qədər də dözə bilmirlər. Məsələn, quruda yaşamağa uyğunlaşmış bitki və heyvanların əksəriyyəti güclü istilər və şaxtalarda məhv olur.

Güclü isti və soyuqlardan qorunmaq üçün canlıların hansı uyğunlaşmaları vardır? Müəyyənləşdirin və müzakirə edin.

Bilirik ki, Günəş həyat mənbəyidir. Lakin onun canlılara təsirini araşdırsaq, görərik ki, Günəş şüalarının yalnız müəyyən qismi Yer səthinə çatır. Günəş şüalarından olan *ultrabənövşəyi şüalar* gözlə görünməsə də, Yerdə baş verənlərə güclü təsir göstərir. Bu şüaların bir hissəsinin qarşısını atmosferdəki *ozon* qatı kəsir. Əgər bu qat olmasa, Günəşin şüaları Yerdə olan bütün canlı aləmi məhv edər. Deməli, canlılar Yerə çatan Günəş şüalarına uyğunlaşmışdır. Bu şüalar orqanizmə müsbət təsir göstərir. Ultrabənövşəyi şüaların təsiri ilə insan bədənində D vitamini əmələ gəlir.

Orqanizmdə D vitamini çatışmazlığı uşaqlarda *raxit* xəstəliyinin əmələ gəlməsinə səbəb olur. Bu səbəbdən də bədənin yoluxucu xəstəliklərə qarşı müqaviməti azalır, sümüklərin formalaşması pozulur. Həkimlər belə halların baş verməməsi üçün təmiz havada gəzməyi tövsiyə edirlər. Lakin həddindən çox Günəş şüası da sağlamlığa ziyandır. Günəş şüaları altında çox qaldıqda *günvurma* baş verə və dəridə yanıqlar əmələ gələ bilər.

Siçan dəvə ilə müqayisədə susuzluğa daha uzun müddət davam gətirə bilir.

Hazırda atmosferin bəzi yerlərində ozon qatının dağılması müşahidə olunur. Buradan keçən ultrabənövşəyi şüalar təbiətdəki canlılara mənfi təsir göstərir. Nəticədə, insanlarda bəzi xəstəliklərin yaranması, bəzilərinin isə sürətlə inkişafı baş verir. Bunun üçün müəyyən günlərdə, yəni ultrabənövşəyi şüaların Yerə daha çox təsir etdiyi vaxtlarda həkimlər insanlara Günəş şüalarından qorunmağı məsləhət görürlər.

Zavodların atmosferə buraxdığı zəhərli qazlar, maşınların tüstüsü, sulara axıdılan kimyəvi maddələr də bitki və heyvanlara, insan sağlamlığına mənfi təsir göstərir. Mühitin dəyişməsi, isti və quraqlıq, kəskin şaxtalar, vulkan püskürmələri, yanğınlar və s. bir çox bitki və heyvanların nəslinin kəsilməsinə səbəb olur.

1. Düzgün olanları seçin:
1) Bakteriyalar həddindən artıq güclü istilərə dözür.
2) Ultrabənövşəyi şüalar dəridə D vitamini əmələ gətirir.
3) Günəş şüaları altında çox qalanda günvurma baş verir.
4) Ultrabənövşəyi şüaları insan görə bilir.
5) Quruda yaşayan bitkilər +100°C qədər temperatura dözə bilir.
6) Maşınların tüstüsü təbiətə ziyan vurur.
7) Buzlaşma bəzi heyvanların nəslinin kəsilməsinə səbəb olub.

2. Ətraf mühitin insan orqanizminə təsirinə dair misallar göstərin.

3. Havası çox çirklənmiş bir şəhər var. Havanı təmizləmək, insanları fəlakətdən xilas etmək üçün bu şəhərdə bir sıra tədbirlərin görülməsi nəzərdə tutulub. Sizcə, aşağıdakılardan hansı bioloji tədbir hesab oluna bilər?

- *Zavodlarda təmizləyici qurğuların yenilənməsi;*
- *Kömürdən istifadənin azaldılması;*
- *Fabrik və zavodlarda kimyəvi maddələrin havaya buraxılmaması;*
- *Ağacların əkilməsi.*

İnsan və təbiət 19

Yəqin ki, dünya səyahətinə çıxmağa etiraz etməzsiniz. Heç düşünmüsünüzmü ki, bu zaman hansı xoşagəlməz hallarla rastlaşa bilərsiniz?

Yalnız yanğını, zəlzələni, meşədə azmağı və s. təhlükəli vəziyyət adlandırmaq olmaz. İqlim şəraitinin kəskin dəyişməsi də orqanizm üçün ciddi təhlükə yarada bilər. Çünki hər birimiz müəyyən iqlim şəraitinə uyğunlaşmışıq. Yəni uyğunlaşdığımız şəraitdə havanın temperaturu, rütubət, ilin günəşli günləri bizə əks-təsir göstərmir. Qəbul etdiyimiz qidalara da orqanizmimiz öyrəşmiş olur.

Əgər dünya səyahətinə çıxmağa qərar veririksə, gedəcəyimiz ölkə haqqında bir az araşdırma aparmağımız məsləhətdir. Bu araşdırma gedəcəyimiz ölkədə yalnız istirahət mərkəzləri, muzeylər, gəzməli-görməli yerlər barədə deyil, həm də *iqlim* şəraiti və qida rasionu barədə olmalıdır.

Qəfil iqlim dəyişkənliyi orqanizm üçün ciddi təhlükəyə, stresə səbəb ola bilər. Səyahətə gedəcəyimiz ölkənin iqlimi ilə yaşadığımız yerin iqlimi nə qədər uyğun olarsa, orqanizmimiz də həmin hava şəraitinə bir o qədər tez alışar.

Şəkillərə əsasən müxtəlif mühit amillərinin insan orqanizminə necə təsir göstərdiyini sinif yoldaşlarınızla müzakirə edin.

Günəş şüaları orqanizm üçün nə qədər əhəmiyyətli olsa da, müxtəlif xəstəliklərə də yol açır.

Payızda havalar yavaş-yavaş soyumağa başlayır. Orqanizm soyuq havaya uyğunlaşır. Lakin təsəvvür edin ki, birdən-birə istidən çıxıb soyuğa düşmüşsünüz. Bu zaman orqanizm mühitə çox çətin uyğunlaşır.

Dağlıq ərazilər öz iqliminə və həyat şəraitinə görə digər ərazilərdən fərqlidir. Dağa qalxdıqca həm havanın temperaturu aşağı düşür, həm də *oksigen* azalır. Belə iqlim şəraiti insana başgicəllənmə, tənəffüs çatışmazlığı, yuxu gətirir. Bu məhz oksigen çatışmazlığı ilə bağlıdır. Ancaq bunun yerli əhaliyə heç bir təsiri yoxdur. Orqanizmin bu şəraitə uyğunlaşması müəyyən vaxt tələb edir.

Bakıdan Kanadaya gedən şəxs bir neçə gün özünü pis hiss edə bilər. Bunun səbəbini araşdırın.

Səyahətə çıxarkən istidən qorunmaq üçün:

- *Su götürmədən yola çıxmayın. Çünki isti havada orqanizm çox su itirir.*
- *Günəşdən qorunmaq üçün gün eynəyindən, çətirdən və ya baş geyimindən istifadə edin.*

1. *İsti yay günlərində günorta vaxtı dənizə gedərkən həkimlər kölgədə oturub bir az gözləməyi məsləhət görürlər. Sizcə, daha hansı qaydalara əməl olunmalıdır? Nə üçün?*
2. *Şəkillərdə verilmiş xalqların nümayəndələrində iqlimə uyğunlaşma əlamətlərini müəyyənləşdirin və səbəbini izah edin.*

20 Təbiətə zərər vurmayaq!

Meşələrin kütləvi şəkildə qırılması bəzi bitki və heyvan növlərinin sayının azalmasına səbəb olub. Bu hadisələrin bir-biri ilə əlaqəsini necə izah edərsiniz?

Ətraf mühit canlıların sığınacağı, qida və oksigen mənbəyidir. Lakin son illərdə dünyada baş verən müharibələr, zəhərli qazlar, tüstü və küllə müşayiət olunan yanğınlar, temperatur və digər iqlim dəyişiklikləri ekoloji vəziyyətin pisləşməsinə səbəb olmuşdur.

Dünyanın ən böyük gölü olan Xəzərə çirkab sularının, məişət tullantılarının və s. axıdılması onun çirklənməsinə səbəb olur.

Canlıların məhvinə səbəb olur.

havanın çirklənməsi

suyun çirklənməsi

torpağın çirklənməsi

İnsan təbiətdə yaşayır və onun bir hissəsidir. Müasir dövrdə insan nəinki təbiəti qoruyub saxlamaq, hətta onu xilas etmək yolları barədə düşünməyə başlamışdır.

Havada *oksigenin azalması, karbon və müxtəlif zərərli qazların artması* əksər canlılara pis təsir edir, onların məhvinə səbəb olur.

İlk canlılar suda yaranmışdır. *Susuz* həyat yoxdur. Həyat mənbəyi olan su yalnız su hövzələrində deyil, həmçinin havada, torpaqda, canlıların orqanizmində də vardır. İçməli su problemi bir çox ölkələrdə ən vacib məsələyə çevrilmişdir. Bəzi ölkələrdə içməyə yararsız sulardan istifadə xəstəliklərə səbəb olur.

Torpaq qida məhsullarının yetişdirilməsi üçün əsas mənbədir. Təəssüf ki, şəhərlərin böyüməsi meşə və otlaqların azalmasına səbəb olur. Nəticədə, yararlı torpaqlar sıradan çıxır.

Qruplara bölünüb aşağıdakı mövzularda araşdırma aparın:

- *Suyun çirklənməsinin canlılara təsiri*
- *Torpağın çirklənməsinin canlılara təsiri*
- *Havanın çirklənməsinin canlılara təsiri*

Canlılar ətraf mühitin cansız amilləri – işıq, temperatur, rütubət olmadan yaşaya bilməz. İşıqsız bitkilər yaşamaz, susuz Yer üzündəki bütün həyat məhv olar. Təsəvvür edin ki, istilik yoxdur, hər tərəf buz bağlayıb. Gözünüz qarşısında hansı mənzərə canlanır?

Bitkilərə nəzər salaq: nərgiz, lalə, qızılgül və digər çiçəklər bizi heyran edir. Səmaya baxaq: Günəş, Ay və ulduzlar bizdə xoş əhvali-ruhiyyə yaradır. Torpağa baxsaq, orada bir çox canlıların (yağış qurdu, bəzi cücülər) müxtəlif çüründü, bitki kökləri və s. ilə qidalandığını görərik.

Son 300 ildə insanlar Yer kürəsindəki meşələrin 65 faizini məhv etmişlər. Belə davam etsə, 15–20 ildən sonra bütün dünyada olan meşələrin sahəsi iki dəfə azalacaqdır.

Təbiətə bir çox amillər zərər vurur. Bunlardan biri *səs-küydür*. Səs-küy insanlara təsir etdiyi kimi, digər canlılara da təsir edir. Məsələn, təyyarələrin yerə yaxın məsafədə uçması bəzən kenqurular, dəniz pişikləri və s. heyvanların məhvinə gətirib çıxarır. Güllə səsi kürt yatan quşların yuvalarını tərk etmələrinə, bu isə nəticədə quş yumurtalarından balanın çıxmamasına səbəb olur.

Təbiətin qorunması hər bir vətəndaşın borcudur.

1. Aşağıdakı şəkillərə əsasən təbiətdə yaranan ekoloji problemlərə səbəb olan amilləri müəyyənləşdirin.

2. "Xəzər dənizində ekoloji problemlər" mövzusunda esse yazın.
3. Ətraf mühitin qorunmasına dair plakat və simvol hazırlayın.
4. Ozon qatının dağılması nəyə səbəb ola bilər?
   a) Heç bir dəyişiklik baş verməz.
   b) Bitkilər zəif inkişaf edər.
   c) Havada karbon qazı artar.
   d) Yerdəki canlılar məhv olar.
5. "Yaşıllıqları qoruyaq" adlı kiçik qrup yaradın. Qrupun görə biləcəyi işləri planlaşdırın.

Təbiətə borcumuz 21

Anası Rövşənə tapşırmışdı ki, hər gün zibilləri atsın. O, tənbəllik edərək zibili qutuya deyil, yaxınlıqdakı binanın tininə atırdı. Qonşu Rövşənə hərəkətinin düzgün olmadığını izah etdi. Sizcə, Rövşənin bu hərəkəti digər sakinlər tərəfindən necə qiymətləndirilər?

Biz öz əllərimizlə təbiətdə ikinci təbiət yaradırıq.

Mark Tulli Siseron

İnsan təbiəti öyrənir və ondan öz məqsədləri üçün istifadə edir. Lakin insan təbiətdən düzgün istifadə etmədikdə bitki və heyvanlar aləminə ziyan vurur. Zavod və fabriklərdən müxtəlif kimyəvi proseslər nəticəsində ayrılan zəhərli maddələr təmizlənmədən suya və havaya buraxıldıqda canlı orqanizmlər, eləcə də insan sağlamlığı zərər görür. Bu isə bəşəriyyətə böyük zərbədir. Əgər proseslər bu cür davam edərsə, insan həm özünü, həm də bütövlükdə təbiəti məhv edə bilər. Ona görə də hər birimiz təbiətin mühafizəsi işinə qayğı göstərməli, onu daim qorumalıyıq.

Təbiətin qorunması qlobal problemdir. Bu səbəbdən dünya dövlətləri təbiətin mühafizəsinə dair müxtəlif qərar və qanunlar qəbul etmişdir. Bu qanunları həyata keçirmək üçün bəşəriyyət mütləq həmrəy olmalıdır. Hazırda dünya dövlətləri arasında təbiəti qorumaq məqsədilə yeni müqavilələr bağlanır, sazişlər imzalanır, müxtəlif layihələr həyata keçirilir.

Şəkillərdəki hadisələri müzakirə edin və oxşar nümunələr göstərin.

İnsanın hüquqlarından biri də sağlam ətraf mühitdə yaşamaq hüququdur. Ətraf mühiti qorumaq isə yalnız dövlət orqanlarının deyil, hamımızın borcudur. Təbiətdə baş verən hər hansı dəyişiklik, ətraf mühitə laqeyd münasibət bir çoxumuzu narahat edir.

Hazırda ətraf mühiti çirkləndirən əsas faktorlardan biri plastik tullantılardır. Bu tullantılar kənd təsərrüfatına təsir göstərir, məhsuldarlığın aşağı düşməsinə səbəb olur. Plastik tullantılardan istifadənin azaldılması üçün yoldaşlarınıza hansı tövsiyələri verə bilərsiniz? Sinif yoldaşlarınızla müzakirə edin.

Təbiət bizim sərvətimiz, var-dövlətimiz, həyatımızın bir hissəsidir. Elm və texnikanın inkişafı, bu sahədə qazanılan uğurlar insanın xoş güzəranı üçündür. Lakin bu güzəranı qurarkən bəzən ekoloji tarazlığı pozuruq. Belə kobud səhvlərin acı nəticələri ilə qarşılaşmamaq üçün təbiəti qorumaq borcumuzdur.

Hər il dünyanın müxtəlif bölgələrində meşə yanğınları baş verir. Azərbaycanda belə yanğınların çoxu insanların yanğın təhlükəsizliyi qaydalarına əməl etməməsi səbəbindən olur. Cüzi ehtiyatsızlıq nəticəsində – söndürülməmiş kibritin, siqaret kötüklərinin ətrafa atılması, biçindən sonra sahələrə od vurulması və s. hallarda meşə yanğınları baş verir. Bu isə meşə sahəsinin bitki və heyvan aləminin məhvi ilə nəticələnir. Belə hallarla rastlaşarkən "Mənim nəyimə lazımdır" deyib keçmək olmaz. Hamımız ətraf mühitin qorunmasına çalışmalıyıq. Bu, təbiət qarşısında mənəvi borcumuzdur. Təbiəti gələcək nəsillərə yalnız qoruyaraq ötürə bilərik. Unutmayaq ki, bu, eyni zamanda ekoloji mədəniyyətdir.

1. *Təbiəti qorumaq üçün vəzifələrinizin siyahısını tərtib edin.*
2. *Təbiəti qorumaq üçün nə edə bilərsiniz? Fikirləşin və esse yazın.*
3. *Azərbaycanda içməli su çatışmazlığının səbəbini araşdırın. Bunun qarşısını almaq üçün nə edə bilərik?*

DİN VƏ MƏNƏVİYYAT

22 İnsanın gözəlliyi onun əxlaq və davranışındadır

Biz tez-tez "o çox tərbiyəli qızdır" və ya "tərbiyəli oğlandır" kimi fikirlər eşidirik. Sizcə, bu sözlər nəyi ifadə edir?

İnsanların ən xeyirlisi insanlara ən çox faydası olandır.

Məhəmməd peyğəmbər

Hər birimizin əxlaqı davranış və hərəkətlərimizlə ölçülür. Məhəmməd peyğəmbər yaxşı əxlaq sahiblərini çox sevirdi. O, "Allah yanında ən çox sevilən qullar kimlərdir?" sualına *"Əxlaqı ən gözəl olanlardır"* cavabını vermişdi.

Hər bir insanın özünə görə ağlı, şüur səviyyəsi, vicdanı, iradəsi, arzu və istəkləri, dünyaya baxışı, əqidə və ideyaları vardır. Bütün bunlar birlikdə insanın *mənəviyyatını* təşkil edir. İnsanın *əxlaqı da* onun mənəviyyatından asılıdır. İnsanın əxlaq və davranışı onun mənəvi sağlamlığının göstəricisidir.

Hər bir əxlaqlı insan ədəb qaydalarına riayət edir, özü qədər başqaları haqqında da düşünür, onların rahatlığını pozmamağa çalışır. Yaxşı tərbiyə görmüş, yüksək əxlaqi keyfiyyətlərə malik insanların fəaliyyəti faydalı olur. Onların varlığı cəmiyyət üçün əhəmiyyətlidir.

Üzeyir, Raul, Lalə, Əli və Humay dostluq edirlər. Onlar öz münasibətlərini necə qurmalıdırlar ki, dostluqları uzun müddət davam etsin?

Bəzən gözləmədiyimiz halda bəzi insanların kobud münasibəti ilə rastlaşırıq. Belə hallar cəmiyyətdə müsbət qarşılanmır.

İnsanların əxlaq və davranışlarının formalaşmasında mühitin və ailənin, milli dəyərlərin, televiziya verilişlərinin, kino və teatrın rolu böyükdür. "Şərikli çörək", "Qaraca qız", "Ögey ana" filmlərini, yəqin ki, izləmişsiniz. Bu filmlərdə humanizm*, insansevərlik ön plana çəkilir və hər birimizdə mehribanlıq, kollektivçilik, dürüstlük, böyüklərə hörmət, insanlara sevgi kimi gözəl xüsusiyyətlər formalaşdırır.

Cəmiyyətdə insanlar bəzən yalanın, iftiranın, böhtanın qurbanı olurlar. Belə hallar cəmiyyətdə kök salarsa, insanların həyatına təsir edər, onların əxlaqını və mənəviyyatını korlayar. Siz də çalışın yalandan, iftiradan, qeybətdən, saxtakarlıqdan uzaq olasınız. Düzgün və dürüst insan olmağa səy göstərin, dilinizə yalan söz gətirməyin.

* *humanizm* – latın sözü olub, *humanitas* – insanlıq, *humanus* – insani, *homo* – insan sözlərindən götürülüb.

Azərbaycan xalqının görkəmli maarifpərvər ziyalısı Abbasqulu ağa Bakıxanov belə deyib: "Fəlakət yalançılıqda olduğu kimi, nicat da doğruluqdadır".

Məşhur alim İmmanuel Kant da gözəl bir fikir söyləmişdir: "Yalanın ən böyük düşməni həqiqətdir".

Əsrlər boyu insanlar yalana qarşı olmuş, onu əxlaqa zidd hesab etmişlər. Doğru danışmaq sizi doğru əməllərə cəlb edər. İnsanın gözəlliyi də məhz onun xeyirxah əməlləri, yalan və qeybətdən uzaq danışığı və insanlara qarşı səmimi, mehriban münasibətinə görə dəyərləndirilir. Bu cür münasibət insanın yüksək mənəvi keyfiyyətlərə malik olmasından, daxili aləminin zənginliyindən xəbər verir və həyatda yaşamağını rahatlaşdırır.

Aşağı siniflərdə siz Abdulla Şaiqin "Yalançı çoban" şeirini oxumuş, yaxud da bu şeirin nağıl variantını eşitmişsiniz. Adi bir zarafatla başlanan yalan çobanın sürüsünü canavarlara yem edir.

Kiçik yaşlardan danışılan bu cür xırda yalanlar zaman keçdikcə insanların həyatında öz mənfi izlərini buraxır. Ona görə də, zarafatla belə olsa, siz də çalışın, yalan danışmayasınız. Öz mənəviyyatınızı daim təmiz və pak saxlayasınız.

1. *Əxlaqlı hesab etdiyiniz insanın hansı keyfiyyətlərə malik olduğunu təsvir edin. Kiçik səhnə hazırlayaraq rolları insanların xarakterinə uyğun təqdim etməyə çalışın.*
2. *"Şərikli çörək" filmini izləyin və tərbiyəvi əhəmiyyəti haqqında kiçik esse yazın.*
3. *Verilmiş mətnə əsasən sual və tapşırıqları cavablandırın:*

   "Çingiz babasını çox sevir. Babası mədəni, savadlı, nurani insandır. Çoxlu mütaliə edir. O, içəri girəndə Çingiz hər zaman ayağa qalxır, ona yer göstərir. Babasının sözünü kəsmir, onu sonadək səbirlə dinləyir. Söhbətlərinə böyük maraqla qulaq asır. Babası Çingizi tez-tez özü ilə teatra, muzeylərə aparır. O, dostları ilə parka çay içməyə gedəndə də Çingiz ondan ayrılmır".

   Çingizin davranışlarına münasibət bildirin.
   Bu cür davranışı formalaşdıran amillər hansılardır?
   Mətni davam etdirsəydiniz, Çingizin davranışlarına başqa nələri əlavə edərdiniz?

Dini dözümlülük 23

Şəkillərdəki təsvirlər hansı dinlərə aiddir?
Siz bu dinlər haqqında nə bilirsiniz?

Qədim zamanlarda insanlar təbiət qarşısında aciz qalmış, bu acizliyin nəticəsi olaraq müxtəlif allahlara inanmışlar. Zaman keçdikcə din daha da təkmilləşmiş, vahid Allaha inam sistemi formalaşmağa başlamışdır. Hazırda dünya əhalisi müxtəlif dinlərə etiqad edir. Dinlərin öz peyğəmbərləri, müqəddəs kitabları və dini adət-ənənələri var.

Kilsə

Sinaqoq

Sizə məlumdur ki, Azərbaycan tolerant ölkədir. Ölkəmizdə müsəlmanlarla yanaşı, digər dinlərə etiqad edən insanlar da yaşayırlar.

Ölkəmizdə müsəlmanların çoxluq təşkil etməsinə baxmayaraq, bütün dinlərə hörmətlə yanaşılır. Bu fikri necə əsaslandıra bilərsiniz?

Qədim İpək yolunun üzərində yerləşən və Şərqlə Qərb arasında körpü rolunu oynayan Azərbaycan torpağında tarix boyu müxtəlif dinlər mövcud olub. Azərbaycanın tarixi inkişafı, coğrafi mövqeyi, əhalisinin tərkibi və s. belə bir şəraitin yaranmasına səbəb olub.

Ölkəmizin müxtəlif ərazilərində tarixən *şamanlıq, atəşpərəstliklə* yanaşı, *yəhudilik, xristianlıq* və *islam* dinləri də mövcud olmuşdur.

Əsrlər boyu öz adət-ənənələri ilə formalaşıb inkişaf edən xalqımız aşağıdakı xüsusiyyətləri özündə birləşdirmişdir:

Din Allahın buyurduqlarını həyata keçirmək üçün bir vasitədir.

İmmanuel Kant

- Vətənə, torpağa, ailəyə, böyük və kiçiyə hörmət, qayğı və sevgi;
- Qonaqpərvərlik, başqa xalqlara və millətlərə hörmət;
- İnsanlıq, xeyirxahlıq, bağışlamaq, mərhəmət;
- Müxtəlif dinlərə, adət-ənənələrə tolerant yanaşma;
- Başqa dinlərə sitayiş edən xalqların dini ibadət yerlərinə hörmət və qayğı ilə yanaşma və s.

Dövlətimiz üçrəngli bayrağımız altında birləşən bütün xalqlara, etnik qruplara həmişə eyni hörmət və qayğı ilə yanaşıb, bü gün də yanaşmaqdadır.

Bütün dinlərin özünəməxsus ibadət mərasimləri, özünəməxsus xüsusiyyətləri vardır. Dinlərin ortaq cəhətləri də vardır ki, bunların sırasına əxlaqlı və dürüst olmaq, insanı yaxşılıqlara yönəltmək, pislik etməmək kimi müsbət keyfiyyətlərin aşılanması daxildir. Məhz müxtəlif dinlərin ortaq cəhətlərini və eyni məqsədlərini qəbul etməklə biz öz inancımızla yanaşı, başqalarının da inanclarına hörmətlə yanaşmış oluruq.

Mənəvi dəyərlər sisteminə dil, din, adət-ənənə, mədəniyyət, ədəbiyyat, tarixi keçmiş kimi amillər daxil edilir. Hər xalqın öz adət-ənənələri, milli-mənəvi, dini dəyərləri var. Ümummilli lider Heydər Əliyev milli-mənəvi dəyərlərimizin öyrənilməsini, qorunub saxlanılmasını və inkişaf etdirilməsini əsas vəzifələrdən biri kimi irəli sürürdü. O deyirdi: "Dünyada bir çox dinlər mövcuddur. Hər dinin özünəməxsus yeri var. Biz azərbaycanlılar islam dininə mənsub olmağımızla həmişə qürur duymuş, eyni zamanda heç vaxt başqa dinlərə qarşı mənfi münasibət göstərməmiş, düşmənçilik etməmiş, ədavət aparmamış və digər xalqları dinimizə itaət etməyə məcbur etməmişik. Hesab edirik ki, insanlar hansı dinə, hansı mədəniyyətə mənsubluğundan asılı olmayaraq, bütün başqa mədəniyyətlərə, dinlərə, mənəvi dəyərlərə də hörmət etməli, dinlərin kiməsə xoş gəlməyən adət-ənənələrinə dözümlü olmalıdırlar".

Azərbaycan Respublikası Konstitusiyasının 18-ci maddəsində qeyd olunur ki, respublikamızda din dövlətdən ayrıdır. Bütün dini etiqadlara inananlar qanun qarşısında bərabərdir. Bununla yanaşı, respublikamızda insan şəxsiyyətini alçaldan, humanizm prinsiplərinə zidd olan dini təriqətləri yaymaq və təbliğ etmək qadağandır.

Azərbaycan tarixən müxtəlif mədəniyyətli, müxtəlif dünyagörüşlü insanları birləşdirən, müxtəlif xalqlara, onların mənəvi dəyərlərinə tolerant, yəni dözümlü yanaşan bir məkan olmuşdur. Müasir dövrdə bir çox dövlətlərin dinlərarası dialoqun inkişafına səy göstərməsinə baxmayaraq, Azərbaycanda bu artıq yaşayış tərzinə çevrilmişdir.

Müsəlmanların həyatında Ramazan və Qurban bayramlarının mühüm rolu olduğu kimi, Pasxa bayramı da xristianların həyatında mühüm əhəmiyyət kəsb edir.

Elmi ədəbiyyatda "tolerantlıq – dözümlülük" dini və milli müxtəlifliyin etirafı, ona hörmətlə yanaşmaq kimi izah edilir. Hər bir dini və milli müxtəlifliyə dözümlü yanaşılması müasir dövrün tələblərindən biridir. Elm və texnologiyanın inkişafı insanların daha da yaxınlaşmasını sürətləndirib. Müxtəlif dinlərin və xalqların nümayəndələrinin təhsil, iş və digər bu kimi fəaliyyətlərini həyata keçirmək üçün bir araya gəlmələrinə şərait yarandığı bir dövrdə dözümlülük ən gözəl vasitədir.

1. Azərbaycan nə üçün dinlərin qovuşduğu məkanlardan biri adlanır?

2. Ölkəmizdə müxtəlif dinlərə qarşı münasibət və bu dinlərə dövlət qayğısı haqqında məlumat toplayın.

3. İbrahimin dostları David yəhudi, Aleksey rusdur. Onlar İbrahimgilə qonaq gəlmişdilər. İbrahimin anası onları qucaqladı.
Ananın dostlara münasibətini qiymətləndirin.

4. Tolerantlıq nə üçün vacib hesab olunur?

Səmavi və qeyri-səmavi dinlər 24

Şəkildəki islam dininin müqəddəs kitabı olan Qurani-Kərimdir. Siz daha hansı dini kitabları və onların məxsus olduğu dinləri tanıyırsınız?

Din insanların ilahi inanc sistemidir. Din dedikdə mənbəyi Yaradana dayanan inanclar nəzərdə tutulur. Dinləri *səmavi* və *qeyri-səmavi* olmaqla iki qrupa ayırırlar. Səmavi dinlər, adından da bəlli olduğu kimi, insanlara Allah tərəfindən peyğəmbərlər vasitəsilə göndərilmişdir. Onlara *xristianlıq, yəhudilik* və *islam* dinlərini aid edirlər.

Dinləri müqayisə edin.

Dinlər	Peyğəmbərlər	Müqəddəs kitablar	İbadət yerləri
Yəhudilik			
Xristianlıq			
İslam			

İslam dininə görə, ilk insan olan Adəm eyni zamanda həm də ilk peyğəmbərdir. Adəm peyğəmbərdən İsa peyğəmbərə qədər bütün peyğəmbərlər insanlara Allahın bir olduğunu və ona necə ibadət ediləcəyini təbliğ etmişlər. Mənbələrə görə, səmavi dinlərdən yəhudilik Musa peyğəmbər, xristianlıq isə İsa peyğəmbər tərəfindən insanlara çatdırılmışdır.

Sonuncu səmavi din islam dinidir ki, bu dinin ayələri insanlara Məhəmməd peyğəmbər vasitəsilə çatdırılmışdır. İslam *sülh, barışıq, bərabərlik* və *yardımlaşma* dinidir.

Qeyri-səmavi dinlər isə Allah tərəfindən göndərilməyib. Bu dinlər insanlar arasında təşəkkül tapan dinlərdir. Müasir dövrdə qeyri-səmavi dinlərdən olan buddizm, əsasən, Çin, Hindistan və Tailandda yayılmışdır. Buddizmin miladdan əvvəl VI əsrdə Hindistanda meydana gəlmişdir. Buddizmə görə ölümlə insanın həyatı bitmir.

Biz həm özümüzə nazil olana (Qurani-Kərim), həm də sizə nazil olana (Tövrat və İncil) inanırıq. Bizim də Allahımız, sizin də Allahınız birdir. Biz yalnız Ona təslim olanlarıq.

Qurani-Kərim
"əl-Ənkəbut" surəsi

1. Dinləri qruplaşdırın: buddizm, yəhudilik, islam, xristianlıq

Səmavi dinlər	Qeyri-səmavi dinlər

2. İslam dinində ən çox bəyəndiyiniz xüsusiyyətləri seçin və əsaslandırın.
3. Məhəmməd peyğəmbərin elmə aid kəlamlarını toplayın və yazın.
4. Səmavi və qeyri-səmavi dinlərə aid məlumat toplayın.

İnanc sistemində oxşarlıq və fərqlər 25

Müxtəlif dinlərin oxşar və fərqli cəhətləri mövcuddur. Bu fərqlər nələrdən ibarətdir?

Uca Yaradanın tək olmasını qəbul etmək, yalnız Allahdan kömək diləmək, hər şeyin Allahın əlində olmasına inanmaq bütün səmavi dinlərin oxşar cəhətləridir.

Allah-taala insanları yer üzündə nizamla yaşamağa, bir-biri ilə gözəl rəftar etməyə, onları Yaradanı tanımağa, xeyirxah olmağa, yaxşı işlər görməyə, yalan danışmamağa, valideynlərə və özündən böyüklərə hörmət etməyə çağırır.

Allahın təkliyini qəbul etmək, *gündə 5 vaxt (dəfə) namaz qılmaq, Ramazan ayında oruc tutmaq, zəkat vermək və Həcc ziyarətinə getmək* sonuncu din olan islamın əsas şərtləri sayılır.

İki xislət heç vaxt müsəlmanın qəlbinə daxil olmaz: biri xəsislik, digəri isə bədxasiyyətlik. Xəsisliklə iman heç vaxt bir qəlbə yerləşməz.

Məhəmməd peyğəmbər

Yəhudilikdə Allaha ibadət edilərək *səhər* və *axşam dua* oxunur. Şənbə günü heç bir iş görülmür, oruc pəhriz şəklindədir. Yəhudilərin ibadət yeri sinaqoqdur.

Müsəlmanlar Ramazan ayında oruc tuturlar. Oruc tutanların hansı qaydalara əməl etməli olduqlarını sinif yoldaşlarınızla müzakirə edin.

Xristian dininə görə, insan dünyaya günahkar olaraq gəlir. Bu səbəbdən uşağın xaç suyuna salınması ayini keçirilir. İnsanlar öz günahlarından təmizlənmək üçün kilsəyə müraciət edirlər və keşiş onların günahlarını bağışlayır. Xristianlar kilsədə *həftədə bir dəfə* – bazar günü dualar oxuyurlar.

1. Hansı sırada qeyri-səmavi dinlər göstərilmişdir? Bu dinlərin fərqli xüsusiyyətləri haqqında məlumat toplayın.
a) islam, xristianlıq, yəhudilik
b) şamanlıq, yəhudilik, islam
c) buddizm, xristianlıq, atəşpərəstlik
d) buddizm, şamanlıq, atəşpərəstlik

2. Aşağıdakılardan hansılar doğrudur?
1) Dinlər yalnız bir ölkədə yayılmışdır.
2) Yəhudiliyə görə, dünyaya gələn uşaqlar xaç suyuna salınmalıdır.
3) Azərbaycanda yalnız müsəlmanlar yaşayırlar.
4) Azərbaycanda tarixən şamanlıq və zərdüştlük kimi çoxallahlı dinlər yayılmışdır.
5) Müsəlmanlar və yəhudilər oruc tuturlar.
a) 1, 2, 4 b) 2, 3, 4 c) 2, 4, 5 d) 4, 5

3. Aşağıdakılardan hansı islam dininə aiddir?
1. Gündə 5 dəfə namaz qılmaq
2. Kilsədə ibadət etmək
3. Həcc ziyarətinə getmək
4. Ramazan ayında oruc tutmaq
5. Günahlardan təmizlənmək üçün keşişə müraciət etmək
a) 2, 3, 5 b) 1, 3, 4 c) 1, 3, 5 d) 1, 2, 3 e) 3, 4, 5

İSTİFADƏ EDİLMİŞ ƏDƏBİYYAT

Azərbaycan dilində

1. "Ayna" uşaq ensiklopediyası. Bakı, 2002.
2. Azərbaycan Respublikasının Konstitusiyası. Bakı, 2018.
3. E.Kərimov, B.Osmanov. İqtisadi nəzəriyyə. Bakı, 2004.
4. Ekoloji siyasət. Bakı, 2008.
5. Fövqəladə hadisələrin təsnifatı (məlumat kitabı). Bakı, 2001.
6. Qurani-Kərim (Tərcüməçilər: akad. Ziya Bünyadov və prof. Vasim Məmmədəliyev), 2011.
7. Maqsud Qasımov. Sağlam həyat tərzi uğrunda. Bakı, 2005.
8. N.Əkbərov. Ailə və cəmiyyətdə əxlaq və davranış qaydaları. "Bərəkət" nəşriyyatı, 2010.
9. N.Əkbərov. Məktəbdə əxlaq və davranış qaydaları. "Bərəkət" nəşriyyatı, 2010.
10. Özünə və başqalarına kömək etməyi bacar (Azərbaycan Respublikası Fövqəladə Hallar Nazirliyi). Bakı, 2004.
11. Rafiq Əliyev. Dinin əsasları. Bakı, 2001.
12. Ramil Əliyev. İqtisadi təhlilin nəzəriyyəsi. Bakı, 2002.
13. Rəfiqə Əliyeva, Qara Mustafayev, Sevinc Hacıyeva. Ümumi ekologiya. Bakı, 2004.
14. S.C.Əliyev, H.M.Hacıyeva, N.C.Mikayılzadə. Tibbi biliklərin əsasları. Bakı, 2004.
15. S.Tağıyeva və b. Həyati bacarıqlara əsaslanan təhsil. Müəllimlər üçün tədris vəsaiti. (V–IX siniflər). Bakı, 2006.
16. Ş.Ə.Topçiyeva, R.T.Qəndilov, S.Ş.Tağıyeva, Ş.Ə.Qocayev, G.N.Hacıyeva, N.Ə.Məmmədova, A.T.Hacıyeva və b. Həyati bacarıqlara əsaslanan təhsil. "Çaşıoğlu", 2007.
17. "Təhsil haqqında" Azərbaycan Respublikasının Qanunu. Bakı, 2009.

Türk dilində

18. Delius, Harald. Etik, Günümüz Felsefe Disiplinleri, D.Özlem, İstanbul.

Rus dilində

19. Коробкин В.И., Передельский Л.В. Экология. Ростов н/Д: Феникс, 2000.
20. Новиков Ю.В. Природа и человек. – М.: Просвещение, 1991.
21. Щепанская Т.Б. Культура дороги в русской мифоритуальной традиции XIX–XX вв. М.: Индрик, 2003.

İnternet resursları

22. http://www.clb.az/files/mv/Menevi_irs.pdf
23. http://multiculturalism.preslib.az/az_a3.html
24. http://www.ebooks.az/view/rOeXAGZE.pdf
25. http://www.refugees-idps-committee.gov.az/az/pages/17.html
26. http://www.refugees-idps-committee.gov.az/az/news/606.html
27. http://miqrasiya.nakhchivan.az/en/images/stories/konvensiyalar/7.pdf
28. http://azhumanrights.az/fondumuz/
29. http://scfwca.gov.az/
30. http://www.fhn.gov.az/?aze/menu/20
31. http://www.fhn.gov.az/index.php?aze/pages/150
32. http://www.dyp.gov.az/?/az/content/188/
33. http://www.fhn.gov.az/?aze/menu/26/348

Buraxılış məlumatı

HƏYAT BİLGİSİ 5

Ümumtəhsil məktəblərinin 5-ci sinfi üçün
Həyat bilgisi fənni üzrə

DƏRSLİK

Tərtibçi heyət:

Müəlliflər:	**Nüşabə Məmmədova**
	Könül Mahmudova
	Sevil Bəhrəmova
Buraxılışa məsul	**Rafiq Kazımov**
Dizayner	
və səhifələyici	**Gülşən Cabbarova**
Redaktorlar:	**Aida Quliyeva**
	Gültəkin Cəfərova
Korrektor	**Nübar Qarayeva**
Texniki redaktor	**Sevinc Yusifova**
Baş redaktor	**Nərgiz Cabbarlı**
Texniki direktor	**Xəqani Fərzalıyev**
Nəşriyyat direktoru	**Sevil İsmayılova**

© **Azərbaycan Respublikası Təhsil Nazirliyi (qrif nömrəsi: 2020-026)**

Müəlliflik hüquqları qorunur. Xüsusi icazə olmadan bu nəşri və yaxud onun hər hansı hissəsini yenidən çap etdirmək, surətini çıxarmaq, elektron informasiya vasitələri ilə yaymaq qanuna ziddir.

Hesab-nəşriyyat həcmi 3,9. Fiziki çap vərəqi 5,5. Formatı 70x100 1/16.
Kəsimdən sonra ölçüsü: 165x240. Səhifə sayı 88.
Şriftin adı və ölçüsü: məktəb qarnituru 10-12. Ofset kağızı. Ofset çapı.
Sifariş ____ . Tiraj 77112. Pulsuz. Bakı – 2020

Əlyazmanın yığıma verildiyi və çapa imzalandığı tarix: 29.07.2020

Nəşriyyat:
“Şərq-Qərb” ASC
(Bakı, AZ1143, Hüseyn Cavid küç., 111)

Çap məhsulunu istehsal edən:
“Təhsil Nəşriyyat-Poliqrafiya” MMC
(Bakı, AZ1052, F.Xoyski küç., 149)

Pulsuz

Əziz məktəbli!

Bu dərslik sizə Azərbaycan dövləti tərəfindən bir dərs ilində istifadə üçün verilir.

O, dərs ili müddətində nəzərdə tutulmuş bilikləri qazanmaq üçün sizə etibarlı dost və yardımçı olacaq.

İnanırıq ki, siz də bu dərsliyə məhəbbətlə yanaşacaq, onu zədələnmələrdən qoruyacaq, təmiz və səliqəli saxlayacaqsınız ki, növbəti dərs ilində digər məktəbli yoldaşınız ondan sizin kimi rahat istifadə edə bilsin.

Sizə təhsildə uğurlar arzulayırıq!